# HUMANİZM VƏ XEYİRXAHLIQ SİMVOLU

Birinci vitse-prezident Mehriban xanım Əliyevanın ictimai-siyasi fəaliyyət spektri əksər sahələri əhatə edir.

Ölkəmizin adı ilə bağlı elə bir sahə yoxdur ki, orada Mehriban xanım Əliyevanın imzası və təşəbbüsü olmasın. Bu fəaliyyət hər bir vətəndaşın, sakinin həyatına müsbət mənada təsir göstərir. Tək rəhbəri olduğu Heydər Əliyev Fondunun uzun illər Azərbaycanın ictimai-siyasi həyatında oynadığı rolu xatırlatmaq kifayətdir.

Azərbaycan xalqının Prezident İlham Əliyevə olan sonsuz inam və etimadı Birinci vitse-prezident Mehriban xanım Əliyevaya olan dərin sevgi və məhəbbətlə birləşir. Bu ahəng güclü və müstəqil Azərbaycanın sabaha olan inamını artırır, daha böyük uğurların əldə ediləcəyindən xəbər verir.

SƏHİFƏ 4-də



'KASPİ' QƏZETİ 1881-Cİ İLİN YANVARINDAN NƏŞR OLUNUR. QƏZETİN ÇAPI 1999-CU İLDƏ BƏRPA OLUNUB

Kaspi

ÜÇ ƏSRİN QƏZETİ

23 AVQUST ŞƏNBƏ 2025 № 32 (4233) Qiyməti - 60 qəpik www.kaspi.az



## QARS-NAXÇIVAN DƏMİR YOLUNUN TƏMƏLİ ATILDI

İğdırda Qars-Dilucu dəmir yolunun tikintisinə başlanması mərasimi keçirilib. Layihə üçün 2,4 milyard avro məbləğində xarici maliyyələşdirmə təmin edilib. Bu xətt 224 kilometr uzunluğunda, iki xətli, elektrikləşdirilmiş və siqnallaşdırılmış şəkildə inşa ediləcək.

SƏHİFƏ 10-da



## SƏRNİŞİNLƏR BİR AZ DA GÖZLƏMƏLİ OLACAQLAR

Bakıda tıxac probleminin həlli istiqamətində işlər davam etdirilir. Yaxın zamanlarda avtobus zolaqlarının 160 kilometrə çatdırılması nəzərdə tutulur. Metropoliten isə yeni stansiyaların açılması istiqamətində layihələrə start verib.

SƏHİFƏ 7-də



## GƏLİRİN BEŞ MİSLİ QƏDƏR KREDİT LİMİTİ

Əhalinin kredit kartı ilə borclanması məhdudlaşdırılıb. Borcalanın kredit kartı onun xalis vergidən sonrakı gəlirinin maksimum beş misli qədər olacaq. Limit digər kredit təşkilatlarına qarşı öhdəlikləri də nəzərə almaqla hesablanır.

SƏHİFƏ 14-də



# KƏLBƏCƏR VƏ AĞDƏRƏYƏ HƏYAT QAYIDIR

Prezident İlham Əliyev Kəlbəcər şəhərində 4-cü və 3-cü yaşayış komplekslərinin təməlini qoyub. Bildirilib ki, 4-cü yaşayış kompleksinə ümumilikdə 807 ailənin köçürülməsi nəzərdə tutulur.

**"BİZ İSTƏDİYİMİZƏ NAİL OLMUŞUQ"**

Dövlət başçısının sözlərinə görə, Ermənistan-Azərbaycan normallaşması prosesi demək olar ki, başa çatıb və imzalanmış sənədlər bizim maraqlarımızı tam təmin edir: "Biz istədiyimizə nail olmuşuq, mənfur Minsk qrupu artıq son günlərini yaşayır".

**"DÜNYA YENİ REALLIQLARI QƏBUL EDİB"**

Prezident qeyd edib ki, dünya birliyi, beynəlxalq aləm bizim qələbəmizi və yeni reallıqları tam qəbul edib və bu da özlüyündə tarixi hadisədir: "Azərbaycan ləyaqətli ölkədir, güclü ölkədir, heç kimə məsləhət görmürük ki, nə vaxtsa bizə qarşı hansısa bəd əməllər haqqında düşünsün".

SƏHİFƏ 3-də

Məktəbli ləvazimatları bazarında son durum

## MƏHSUL UCUZ, SEÇİM ÇOX



2025-ci ilin payız tədris mövsümü yaxınlaşdıqca, məktəbli ləvazimatları bazarında diqqətçəkən tendensiya müşahidə olunur. Qiymətlər keçən illə müqayisədə aşağı enib. Ekspertlər mövcud tendensiyanın dəyişə biləcəyini düşünürlər.

SƏHİFƏ 9-da



## KANSLER FRİDRİX MERTSİN YÜZ GÜNÜ

Ziddiyyətli hərəkətlər Almaniya kansleri Fridrix Mertsin reytinqinin çökməsinə səbəb olub. Yüz gündən sonra alman seçicilərinin yalnız 30%-i onun işindən razıdır. Bu, Mertsin sələfləri ilə müqayisədə eyni dövr üçün ən aşağı göstərici sayılır.

SƏHİFƏ 6-da



## ƏMLAK QİYMƏTLƏRİ YENİDƏN ARTACAQ

Bakının mərkəzi rayonlarında estetik görkəmə xələl gətirən, qəzalı vəziyyətdə olan və istismar müddətini bitirmiş yaşayış binalarının inventarizasiyası prosesi başa çatıb. Maraqlıdır, görəsən söküntülər mənzil bazarına təsir edəcək?

SƏHİFƏ 8-də



## AVROPANIN QOLF CƏNNƏTİNDƏN REPORTAJ

Lüks həyat tərzi və qlamurluğu ilə seçilən Marbella İspaniyanın Aralıq dənizi kurortları arasında ən yaxşılarındandır. Qışda şəhər "Sierra Blanca" dağ silsiləsi tərəfindən kəskin və sərin küləklərdən etibarlı şəkildə qorunur.

SƏHİFƏ 15-də



Bakının mərkəzindən yoxa çıxan zibil qabları

SƏHİFƏ 11-də



Paşinyan reallığı başa düşüb

SƏHİFƏ 5-də



Sükanı belə saxla!

SƏHİFƏ 12-də



Hotellər "booking"ə qarşı

SƏHİFƏ 13-də



Avropada futbol mövsümü başlayır

SƏHİFƏ 16-da



## Rusiya Prezidenti Mehriban Əliyevanı təbrik edib

Rusiya Prezidenti Vladimir Putin Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevaya təbrik məktubu ünvanlayıb. Təbrikdə deyilir: “Hörmətli Mehriban Arif qızı. Doğum gününüz münasibətilə səmimi təbriklərimi qəbul edin. Sizə səmimi-qəlbdən möhkəm cansağlığı, xoşbəxtlik, əmin-amanlıq və dövləti fəaliyyətinizdə uğurlar arzulayıram. İlham Heydər oğluna və ailənizin bütün üzvlərinə salamımı çatdırmağınızı xahiş edirəm”.




## Qarabağa səfər icazəsi ilə bağlı yenilik

Azərbaycanda vətəndaşlar işğaldan azad olunmuş ərazilərə səfər üçün icazələri artıq “mygov” platforması vasitəsilə ala biləcəklər. “Report” xəbər verir ki, bu barədə Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyi məlumat yayıb.
Bildirilir ki, əvvəllər bu icazələr yalnız “Yolumuz Qarabağa” portalı üzərindən verilirdi. İstifadəçilər platformada “Nəqliyyat” kateqoriyasından “İşğaldan azad olunmuş ərazilərə səfər üçün icazə” xidmətini seçərək, təyinat nöqtəsini və səfər tarixini müəyyənləşdirir, avtomobil və sərnişin məlumatlarını daxil edir. Bu mərhələdə müraciət edən şəxsin FİN kodu üzrə adına qeydiyyatda avtomobil varsa, məlumatlar avtomatik olaraq ekranda görünür. Əgər yoxdursa, vətəndaş özü məlumatları əlavə edir. İstifadəçi bütün məlumatları əlavə etdikdən sonra birdəfəlik şifrə (OTP) ilə müraciətini təsdiqləyir. Vətəndaş aldığı icazəyə dair məlumatları “Tarixçə” bölməsindən izləyə və lazım gəldikdə icazəni ləğv edə bilər. Səfər zamanı sürücü də daxil olmaqla 9 sərnişin iştirak edə bilər. Bununla yanaşı, dövlət qeydiyyat nişanlı fərdi mink avtomobilinin əlavə olunması tələb olunur.

# ÜÇ TÜRK DÖVLƏTİ BİR ARADA



Türkmənbaşı şəhərində Türkmənistan, Azərbaycan Respublikası və Özbəkistan Respublikası arasında yüksəksəviyyəli görüş keçirilib. Görüşdə Azərbaycan Prezidenti İlham Əliyev, Türkmənistan Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədov və Özbəkistan Prezidenti Şavkat Mirziyoyev iştirak ediblər.

Prezident İlham Əliyev Türkmənistan Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədovun dəvəti ilə avqustun 22-də bu ölkəyə işgüzar səfər edib. Dövlət başçısı ilə Qurbanqulu Berdiməhəmmədov arasında öncə təkbətək, daha sonra isə nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüş keçirilib.

### “TÜRKMƏN VƏ AZƏRBAYCAN XALQLARI QARDAŞDIRLAR”

Qurbanqulu Berdiməhəmmədov bildirib ki, ölkələrimiz arasında münasibətlər başlanğıcını tarixin dərinliklərindən götürür, ənənələrimiz oxşardır və bunlar bizi birləşdirən amillərdir: “Siyasi, diplomatik, iqtisadi-ticari, mədəni-humanitar münasibətlərimizi bu təməl üzərində inkişaf etdiririk”. Onun sözlərinə görə, iqtisadi-ticari əməkdaşlığın inkişafı əlaqələrimizin gündəliyində duran mühüm istiqamətdir. Bu istiqamətdə artıq böyük işlər görülüb: “Bu əlaqələrin bundan sonra da inkişaf etdirilməsi, ölkələrimiz arasında ticarət dövriyyəsinin artırılması, enerji, nəqliyyat, toxuculuq sənayesi kimi sahələrdə əməkdaşlığın genişləndirilməsi üçün böyük imkanlarımız var”.
Prezident İlham Əliyev qeyd edib ki, bizi birləşdirən ortaq tarix, mədəniyyət, etnik köklər, dilimiz və dinimizdir: “Türkmən və Azərbaycan xalqları, sözün əsl mənasında, qardaşdırlar və əsrlər boyu bu qardaşlıq hissləri ilə yaşamışlar. Bu gün müstəqil dövlətlər kimi böyük uğurlara imza atırlar”.
Görüşlərdə siyasi əlaqələrimizin mövcud durumundan məmnunluq ifadə olunub.



### “BİRGƏ SƏYLƏR DAVAM ETDİRİLƏCƏK”

Avqustun 22-də Türkmənbaşı şəhərində Türkmənistan, Azərbaycan Respublikası və Özbəkistan Respublikası arasında yüksəksəviyyəli görüş də keçirilib. Görüşdə Azərbaycan Prezidenti İlham Əliyev, Türkmənistan Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədov və Özbəkistan Prezidenti Şavkat Mirziyoyev iştirak ediblər.
Prezident İlham Əliyev çıxışı zamanı Qurbanqulu Berdiməhəmmədova Füzuli şəhərində məscidin inşa olunması barədə qərara görə xüsusi təşəkkür edib: “Bütün bunlar göstərir ki, Azərbaycan-Türkmənistan münasibətləri yüksəliş dövrünü yaşayır. Biz bu münasibətlərin bütün sahələrdə inkişafı üçün birgə səylərimizi davam etdirəcəyik. Özbəkistan Respublikası ilə bizi 2024-cü il avqustun 23-də imzalanmış “Müttəfiqlik münasibətləri haqqında Müqavilə” bağlayır. Özbəkistanla qardaşlıq münasibətlərimiz qarşılıqlı dəstəyə, güclü mədəni tellərə və ortaq strateji məqsədlərə əsaslanır”.

## “QARŞIDA YENİ VƏZİFƏLƏR VƏ İMKANLAR DAYANIR”

Dövlət başçısının sözlərinə görə, Azərbaycan, Türkmənistan və Özbəkistan Şərqlə Qərbi, Şimalla Cənubu birləşdirən mühüm geostrateji mövqeyə malikdir: “Ölkələrimizin qarşısında nəqliyyat-tranzit əməkdaşlığı sahəsində yeni vəzifələr və imkanlar durur. Bunların arasında Orta Dəhliz, limanların genişləndirilməsi, dəmir yolu məsələlərini biz bu gün hörmətli qardaşım Qurbanqulu Məlikquliyeviçlə geniş müzakirə etdik. Bu məsələləri Şavkat Miromonoviçlə də son görüşümüzdə müzakirə etmişik. Yəni, üç ölkənin nəqliyyat, tranzit, logistika istiqamətində birgə səylər göstərməsi nəinki ölkələrimiz üçün, böyük region üçün mühüm əhəmiyyət daşıyacaq”.

### BİRGƏ BƏYANAT QƏBUL EDİLİB

Daha sonra tərəflərin iştirakı ilə sənədlərin imzalanması mərasimi olub, “Azərbaycan Respublikasının, Türkmənistanın və Özbəkistan Respublikasının Birgə Bəyanatı” qəbul edilib.
Birgə görüşdən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Türkmənistan Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədov və Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev Türkmənbaşı şəhərində “Axaltəkə” atlarına və milli “Galkynysh” atlı qrupunun çıxışına baxıblar. Sonda Türkmənistan Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədov Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədovun və türkmən xalqının adından dövlətimizin başçısına “Taus” ləqəbli “Axaltəkə” atını hədiyyə edib.



# KƏLBƏCƏR VƏ AĞDƏRƏYƏ HƏYAT QAYIDIR

Prezident İlham Əliyev Kəlbəcər şəhərində 4-cü və 3-cü yaşayış komplekslərinin təməlini qoyub. Bildirilib ki, 4-cü yaşayış kompleksinə ümumilikdə 807 ailənin köçürülməsi nəzərdə tutulur. 3-cü yaşayış kompleksində isə 476 mənzilin inşası planlaşdırılıb.



AZAD ƏLİYEV
azad.eliyev@kaspi.az

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın işğaldan azad edilən rayonlara son səfəri özünün zənginliyi və əhəmiyyəti ilə seçildi. Dövlət başçısı səfər zamanı işğaldan azad edilən ərazilərdə görülən işlərlə tanış olub, bərpadan sonra yeni yaşayış yerlərinə köçən əhali ilə görüşüb.

### MUROVDAĞ TUNELİNİN TEXNİKİ AÇILIŞI

Prezident və birinci xanım Kəlbəcər rayonuna səfər çərçivəsində Toğanalı-Kəlbəcər-İstisu avtomobil yolunda görülən işlərlə tanış olublar. Dövlət başçısı bu yolun 13,5-ci kilometrliyində inşa edilmiş və uzunluğu 11,7 kilometr olan Murovdağ tunelinin texniki açılışını edib.

Prezident İlham Əliyev Kəlbəcər şəhərində 4-cü və 3-cü yaşayış komplekslərinin də təməlini qoyub. Bildirilib ki, 4-cü yaşayış kompleksinə ümumilikdə 807 ailənin köçürülməsi nəzərdə tutulur. 3-cü yaşayış kompleksində isə 476 mənzilin inşası planlaşdırılıb. Dövlət başçısı “Balland-Kəlbəcər balı, arı və arıçılıq məhsulları mağazası”nın, Vəng kəndində “Aşağı Vəng”, “Nadirxanlı” və “Çaykənd” kiçik su elektrik stansiyalarının açılışında da iştirak edib.

### “BU BİNALARDA 10 MİNDƏN ÇOX İNSAN YAŞAYACAQ”

Prezidentin Kəlbəcər rayonuna səfəri buraya əbədi yaşamaq üçün qayıtmış sakinlərin yaddaşında dərin və silinməz izlər qoyub. Onlara mənzillərinin açarlarını məhz İlham Əliyev təqdim edib. Dövlət başçısı sakinlərlə söhbətində bir sıra vacib bəyanatlar da səsləndirib. Dövlət başçısı qeyd edib ki, birinci mərhələdə “Böyük Qayıdış” Proqramı çərçivəsində Kəlbəcər şəhərində dörd yaşayış kompleksinin inşası nəzərdə tutulur və bu binalarda 10 mindən çox insan yaşayacaq. Kəlbəcər şəhərində gözəl məktəb tikilir və gələn il istifadəyə veriləcək. “Bu gün, o cümlədən ona görə tarixi bir gündür ki, ölkəmizin ən böyük rayonu olan Kəlbəcər və onun şəhəri artıq canlanır, buraya həyat qayıdır”, - Prezident qeyd edib.

### “BÜTÜN BU SİLAHLAR ONLARA PULSUZ VERİLİRDİ”

Prezident İlham Əliyev işğal dövründə və tarixi qələbəmiz zamanı yaşanan məqamları bir daha xatırladıb: “Bəzi ölkələr onlara milyardlarla dollar dəyərində pulsuz silahlar verirdi. İkinci Qarabağ müharibəsi və antiterror əməliyyatı nəticəsində məhv etdiyimiz və hərbi qənimət kimi götürdüyümüz Ermənistan ordusuna xaricdən verilən silahların qiyməti təqribən 5-6 milyard dollar dəyərindədir. Təbii ki, Ermənistanın bu qədər silah almaq üçün pulu yox idi. Bütün bu silahlar onlara pulsuz verilirdi, bir məqsədlə ki, işğal davam etsin, bir məqsədlə ki, azərbaycanlılar heç vaxt öz dədə-baba torpaqlarına qayıtmasınlar, bir məqsədlə ki, Ermənistanla Azərbaycan arasında bu münaqişə sülh yolu ilə həll olunmasın”.



## “Biz istədiyimizə nail olmuşuq”

Dövlət başçısının sözlərinə görə, Ermənistan-Azərbaycan normallaşması prosesi demək olar ki, başa çatıb və imzalanmış sənədlər bizim maraqlarımızı tam təmin edir: “Biz istədiyimizə nail olmuşuq, mənfur Minsk qrupu artıq son günlərini yaşayır. Faktiki olaraq o, heç bir fəaliyyət göstərmirdi və göstərə də bilməzdi. Ancaq hüquqi cəhətdən mövcud idi, indi onun da sonu yaxınlaşır.

Ermənistanla sülh müqaviləsinin müəllifi də bizik, o bəndlərin tərtibatında da bizim mövqeyimiz hər zaman əsas götürülmüşdür. Bu sənədin paraflanması faktiki olaraq Ermənistan-Azərbaycan qarşıdurmasına son qoyur. Bununla bərabər, bizim tarixi diyarımız olan Naxçıvanla quru bağlantısı da təmin edildi”.

### “AZƏRBAYCAN LƏYAQƏTLİ ÖLKƏDİR”

Prezident qeyd edib ki, dünya birliyi, beynəlxalq aləm bizim qələbəmizi və yeni reallıqları tam qəbul edib və bu da özlüyündə tarixi hadisədir: “Azərbaycan ləyaqətli ölkədir, güclü ölkədir, heç kimə məsləhət görmürük ki, nə vaxtsa bizə qarşı hansısa bəd əməllər haqqında düşünsün. Hər halda son 80 il ərzində dünyada Azərbaycan qədər tam və mütləq qələbə qazanan ikinci ölkə olmamışdır”.

Prezidentin sözlərinə görə, Azərbaycan sülh istəyir. “Ancaq heç vaxt o qanlı tarix yaddaşımızdan silinməməlidir, heç vaxt şirin sözlərə aldanmamalıyıq, ayıq olmalıyıq. Təbii ki, bizim Silahlı Qüvvələrimiz hər an, hər gün dövlətimizin maraqlarının, təhlükəsizliyin keşiyindədir. Biz mümkün olan təhlükə mənbələrini izləyirik, görürük və görəcəyik. Biz hərbi gücümüzü artırırıq. İkinci Qarabağ müharibəsindən sonra həm Xəzər dənizindəki, həm də bütün digər silahlı qüvvələrimizin inkişafı ilə əlaqədar minlərlə, - sayını demək istəmirəm, amma böyük sayda, - xüsusi təyinatlı qüvvələrimizin say tərkibini artırmışıq, yeni komando qüvvələri yaradılıb. Pilotsuz uçuş aparatlarının ən müasirləri, yeni artilleriya sistemləri ölkəmizə gətirilib. İndi yeni döyüş təyyarələri üzrə kontraktlar bağlanıb və mövcud olan təyyarələr tam müasirləşdirilib. Biz hər an müharibəyə hazır olmalıyıq. Çünki dünyada proseslər elə istiqamətdə gedir ki, bilmək olmaz sabah nə olacaq. Bizim təhlükəsizliyimizin qarantı biz özümüzük - dövlət, xalq və Silahlı Qüvvələrimiz”, - Prezident qeyd edib.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva işğaldan azad olunmuş ərazilərə səfər çərçivəsində Ağdərənin Vəngli və Kolatağ kəndlərinin sakinləri ilə də görüşüblər.

# HUMANİZM VƏ XEYİRXAHLIQ SİMVOLU

**Birinci vitse-prezident Mehriban xanım Əliyevanın ictimai-siyasi fəaliyyət spektri əksər sahələri əhatə edir. Azərbaycan həqiqətlərinin beynəlxalq aləmə çatdırılmasında da onun misilsiz xidmətləri var.**



AZAD ƏLİYEV
azad.eliyev@kaspi.az

Birinci vitse-prezident Mehriban xanım Əliyeva müasirlik, humanizm və xeyirxahlıq, birlik və bərabərlik prinsiplərini əsas tutan müstəqil Azərbaycanın ən görkəmli ictimai-siyasi xadimlərindəndir. Bu dəyərlərin formalaşması, Azərbaycan adının dünyada duyulması, Azərbaycan həqiqətlərinin beynəlxalq aləmə çatdırılmasında Birinci xanım Mehriban Əliyevanın misilsiz xidmətləri var.

## AZƏRBAYCAN QADININA VERİLƏN DƏYƏR

Bu gün ölkəmizin adı ilə bağlı elə bir sahə yoxdur ki, orada Mehriban xanım Əliyevanın imzası və təşəbbüsü olmasın. Onun ictimai-siyasi fəaliyyət spektri əksər sahələri əhatə edir, hər bir vətəndaşın, sakinin həyatına müsbət mənada təsir göstərir. Tək rəhbəri olduğu Heydər Əliyev Fondunun uzun illər Azərbaycanın ictimai-siyasi həyatında oynadığı rolu xatırlatmaq kifayətdir.

Azərbaycanın birinci xanımı Mehriban Əliyeva bu gün müasir Qərb və qədim Şərq ənənələrini özündə birləşdirən Azərbaycan qadını obrazını dünyaya tanıdır. Ailəyə, Vətənə, xalqına dərin sevgi və məhəbbətlə, sarsılmaz iradə ilə bağlanan bu obraz Azərbaycan qadınının nə dərəcədə mükəmməl və yüksək keyfiyyətlərə, xarakterə malik olduğunun təcəssümüdür.

## QLOBAL MİQYASLI FƏALİYYƏT

Mehriban xanım Əliyevanın ICESCO-nun xoşməramlı səfiri olması onun fəaliyyətinin həm də qlobal miqyaslı olmasını şərtləndirir. Dünyada baş verən proseslərin, Azərbaycan üçün mühüm əhəmiyyət daşıyan məqamların düzgün qiymətləndirilməsi Mehriban xanım Əliyevanın rəhbərliyi ilə həyata keçirilən qlobal miqyaslı layihələrin uğurunun əsas təməl prinsiplərindəndir. Birinci xanımın dünya mədəniyyətinə, dinlərarası və mədəniyyətlərarası dialoqa, multikultural dəyərlərin təbliğinə istiqamətlənən uzaqgörən ictimai-siyasi fəaliyyəti Azərbaycanın müasir və demokratik prinsiplərə sahib ölkə imicinin formalaşmasında özünəməxsus rol oynayır. Bu fəaliyyət həm də Azərbaycana qarşı planlar quran qüvvələrin məqsədlərinin reallaşmasının qarşısını alır. Hansı ki, işğal dövründə və tarixi qələbəmizdən sonra ölkəmizə qarşı həyata keçirilən, həqiqətlərdən uzaq informasiya müharibəsinin miqyası günü-gündən artırdı. Məhz Birinci vitse-prezident Mehriban Əliyevanın dünya miqyasında rəğbətlə qarşılanan fəaliyyəti bu informasiya müharibəsində Azərbaycanın ən böyük üstünlüklərindən biri sayılır.

## DÜNYA MƏDƏNİ İRSİNƏ TÖHFƏLƏR

Azərbaycana dost və qardaş ölkələrə üzləşdikləri təbii fəlakətlər zamanı yardım əlinin uzadılması, müharibələrdən, münaqişələrdən əziyyət çəkən insanların ehtiyaclarının qarşılanması ilə bağlı atılan addımlar Mehriban Əliyevanın timsalında Azərbaycan dövlətinin, onun rəhbərliyinin humanizm, xeyirxahlıq prinsiplərinə verdiyi dəyərin göstəricisi kimi qiymətləndirilir. Bu gün Mehriban xanım Əliyevanın adı dünyanın bir çox ölkələrində məhz xeyirxahlıq və humanizm simvolu kimi qəbul edilir. Bu, həm də dünyada Azərbaycan qadınına göstərilən dəyər və hörmətdir.

Məhz onun təşəbbüsü ilə Azərbaycan muğamı, dünyanın ən qədim tarix-arxeoloji qoruğu - Qobustan, aşıq sənəti, İçərişəhər kimi neçə-neçə Azərbaycan adına bağlı milli-mənəvi, tarixi-mədəni irsimizin daşıyıcıları olan nümunələr dünya maddi-mənəvi irsi siyahısına daxil edilib. Bu siyahının genişliyi həm də dünyada Azərbaycan adının tanınması, təbliği, ölkənin sosial-iqtisadi inkişafında mühüm rola malik turizm sektorunun dirçəlməsi baxımından böyük əhəmiyyət daşıyır.



## PREZİDENTİN ƏN YAXIN SİLAHDAŞI



Tarixi qələbəmizdən sonra Azərbaycan daha güclü, daha müasir və müstəqil ölkə olaraq nəinki bölgəmizdə, dünyada mühüm geosiyasi aktor kimi qəbul edilir. Əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan Zəfər yolunun şanlı qələbəmizlə, ərazi bütövlüyümüzün, suverenliyimizin bərpası ilə yekunlaşması Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin xidmətləridir. Bu illər ərzində ölkəmiz üçün ən mühüm məsələ olan işğal faktına son qoyulması, güclü və müstəqil Azərbaycanın qurulması istiqamətində dövlət başçısının ən yaxın silahdaşı birinci xanım Mehriban Əliyeva olub. Azərbaycan xalqının Prezident İlham Əliyevə olan sonsuz inam və etimadı Birinci vitse-prezident Mehriban xanım Əliyevaya olan dərin sevgi və məhəbbətlə birləşir. Bu ahəng güclü və müstəqil Azərbaycanın sabaha olan inamını daha da artırır. Daha böyük uğurların, qələbələrin və inkişafın əldə ediləcəyindən xəbər verir.

## TARİXİ İRSİMİZ BƏRPA OLUNUR

Qələbəmizin əldə edilməsində canlarından və qanlarından keçən şəhidlərimizin xatirəsinin əziz tutulması da Mehriban xanımın daim diqqətindədir. Birinci xanım ərazi bütövlüyümüz və suverenliyimiz uğrunda canlarından keçən qəhrəmanlarımızın əmanətlərinə ən yüksək səviyyədə sahib çıxır, onların diqqət və qayğı ilə əhatələnməsi üçün yorulmaz fəaliyyət göstərir. Bu gün Qarabağ dirçəlir, işğal zamanı dağıdılmış, məhv edilmiş tarixi-mədəni irsimiz yenidən bərpa olunur. Keçmiş qaçqın və məcburi köçkünlərin öz doğma yurdlarına layiqli şəkildə qayıtması üçün meqalayihələr həyata keçirilir. Bu işlərdə də Prezident İlham Əliyevə ən böyük dəstəyi məhz Mehriban xanım verir. Şuşada, Zəngilanda, Ağdamda yüzlərlə tarixi-mədəni irsimizin, məscidlərimizin bərpası, məktəblərin, bağçaların, səhiyyə ocaqlarının inşası onun rəhbəri olduğu Heydər Əliyev Fondu vasitəsi ilə həyata keçirilir. Bu gün Şuşa dağlarında Azərbaycan muğamının sədaları bütün Qarabağa yayılır. Vaqifin poeziyası bu torpaqların əzəli və əbədi sahiblərinin məhz bizlər olduğunu dünyaya nümayiş etdirir. Uzun illər həsrətində olduğumuz, sevinc və qürur hissi yaşadığımız bu məqamlarda Mehriban xanım Əliyevanın xalqına, dövlətinə dərin sevgi və məhəbbət hissi ilə bağlı olduğu müqəddəs missiyasının payı böyükdür.

# PAŞİNYAN REALLIĞI BAŞA DÜŞÜB

Hətta yekun sülh sazişinin imzalanmasından sonra da heç kim, xüsusilə erməni xalqı unutmamalıdır ki, ona firavan şəkildə, müharibəsiz gələcək qurmaq imkanlarını Azərbaycan bəxş edib. Paşinyan məhz bu tarixi şansdan möhkəm yapışmağı məsləhət görür.



RÜSTƏM QARAXANLI



Ermənistanın Baş naziri Nikol Paşinyanın avqustun 18-də erməni xalqına ünvanlanan xüsusi müraciətlə çıxış etməsi onun on gün əvvəl Vaşinqtonda Azərbaycan Prezidenti İlham Əliyevlə imzaladığı Birgə Bəyannamə kontekstindən şərh olunmalıdır. Erməni xalqının tarixə, ələlxüsus da son 30 ildə baş verən proseslərə özünəməxsus baxışı nöqteyi-nəzərdən, Paşinyanın bu addımını sülh prosesinin ən kritik məqamlarından biri də saymaq olar.

Qarşıdan parlament seçkisi gəlir və Azərbaycanla münasibətlər çox güman ki, seçki prosesinin ən qaynar mövzularından biri olacaq. Belə bir həssas məqamda ölkə rəhbərinin sülh platformasından çıxış etməsi mövcud reallıqdan doğan iki məqama dəlalət edir: birincisi, hakim qüvvə seçkiyə sülh platforması ilə gedəcək və bu, Ermənistan üçün bir tarixi dönüşdür. İkincisi və ən vacibi isə, bu gündəmin erməni cəmiyyəti və bütövlükdə xalqı tərəfindən qəbul edilməsidir. Yoxsa, Paşinyanın özünün də dediyi kimi, əgər erməni xalqı bu gedişatdan narazıdırsa, ölkədə siyasi qarşıdurma və inqilab baş verə bilərdi.

### TARİXİ GERÇƏKLİYİN DƏRKİ

Ermənilərin cəm halında yaranmış yeni situasiya ilə razılaşması və gerçəkliyi qəbul etməsi onillərdir davam edən ədavətin çözülməsi istiqamətində hesab edilən ən mürəkkəb mərhələdir. İllərdir mifik "miatsum" ideyaları ilə yaşayan, dünyaya separatçılıq eynəyi ilə baxmağa alışmış bir toplumun mövcudluq faktoru olan toksik ideologiyadan imtina etməsi Cənubi Qafqazın bir region olaraq həyatında, sözün əsl mənasında, tamamilə fərqli bir dövrün başlanğıcıdır. Çünki son iki əsr ərzində bölgədə baş vermiş bütün tarixi proseslər, münaqişə və müharibələr, tökülən qanlar və yaşanan faciələrin, o cümlədən xarici qüvvələrin regiona təsir aksiyalarının mərkəzində məhz erməni amili durub. Erməni xalqının tarixi Azərbaycan torpaqlarına köçürülməsi ilə başlanan siyasi və coğrafi təlatümlər tək bizim deyil, bütün bölgənin gələcəyinin dəyişilməsinə səbəb olub.

Bu gün Ermənistan liderinin sülh mövzusunda xalqa müraciət etməsi, hakimiyyətdə qalmaq üçün keçiriləcək seçkiyə savaş yox, barışıq platforması ilə getməsi tarixi baxımdan məhz bu səbəblərə görə inqilabi dəyişiklik hesab edilməlidir. Ermənistan cəmiyyətinin bu gerçəkliklə barışması və Paşinyanın yanaşmasını dəstəkləməsi növbəti dəfə Azərbaycanın tarixi qələbəsinin siyasi çəkisini göstərir. Hətta yekun sülh sazişinin imzalanmasından sonra da heç kim, xüsusilə erməni xalqı unutmamalıdır ki, ona firavan şəkildə, müharibəsiz gələcək qurmaq imkanlarını Azərbaycan bəxş edib. Paşinyan məhz bu tarixi şansdan möhkəm yapışmağı məsləhət görür və ilkin reaksiya ona dəlalət edir ki, cəmiyyət də bu çağırışa yaşıl işıq yandırır.

## Ərazi iddialarına son

Paşinyanın çıxışında ən önəmli məqam ondan ibarətdir ki, Ermənistanda bir dövlət olaraq Azərbaycan ərazilərinə iddialara son qoyulur. Düzdür, bu, uzun bir prosesdir və məntiqi sonluğu konstitusiyada ediləcək müvafiq dəyişikliklərə bağlıdır. Şübhə yoxdur ki, rəsmi İrəvanın Bakı qarşısında belə bir öhdəliyi var və parlament seçkisi prosesi bitən kimi, Ermənistan konstitusiyasında ərazi iddialarının aradan qaldırılması günün əsas tələbi olacaq. Hətta istisna deyil ki, yeni ana qanunun layihəsi də seçki ilə paralel şəkildə referenduma çıxarılacaq. Bu baxımdan, Ermənistan liderinin tarixi müraciətinə ilkin münasibəti erməni xalqının sabah müzakirəyə çıxarılacaq yeni mətnli konstitusiyaya olan reaksiyasının test variantı kimi nəzərdən keçirilməlidir.

Daha bir vacib məqam ondan ibarətdir ki, Paşinyanın bu çıxışı ilə revanşistlərin və separatizm tör-töküntülərinin "ermənilərin Artsaxa qayıtması" şüarı ilə törətdikəri siyasi-ideoloji təxribatlar, bu faktoru daxili siyasi mübarizə predmetinə çevirmə cəhdlərinə tarixi nöqtə qoyulur. Əgər cəmiyyət seçkiyə gedən ölkə rəhbərinin bu mövqeyinə razılıq bildirirsə, hər iki xalqın yaşadıqları faciələrin səbəbkarları olan Levon Ter-Petrosyan, Robert Koçaryan, Serj Sarqsyan və onların siyasi ballastı - erməni separatizminin hansı mübarizə resursu qalır? Belə bir reallıqda onlar erməni xalqı üçün nəyə görə lazımlı hesab edilməlidirlər?

## Geosiyasi manipulyasiyaların iflası

Erməni xalqının Paşinyanın çıxışına ilkin reaksiyası belə bir ehtiyatlı optimizmə əsas verir ki, tək iki xalqın və dövlətin deyil, daha geniş miqyasda bütün bölgənin həyatına edilən xarici təsirlərin neytrallaşdırılması üçün tarixi fürsət yaranır. Ermənistan-Azərbaycan ədavəti İrəvandakılardan daha çox bu təsirləri edən dövlətlər və güc mərkəzləri üçün lazım olub. İki xalqın faciəsinə səbəb olmuş bu qanlı qarşıdurma həmin dövlətlərin regionda mövcudluq platforması qismində çıxış edib. Məhz bu səbəbdən bu gün yekun sülh istiqamətində yaranmış tarixi şans həmin dairələri qıcıqlandıran əsas katalizatora çevrilib. 30 ildir sözdə sülhdən dəm vuranlar indi gündəm olan, onillərin qaranlıq tunelində görünməyə başlayan barışıq işartılarından kor olmağa başlayıblar.

Ermənistan hökumətinin və bütövlükdə cəmiyyətin illərdir sürən məkrli iddialarından vaz keçmələri, daha doğrusu, buna məcbur olması məhz bu nöqteyi-nəzərdən geosiyasi çalar alır. Erməni separatizmi ideologiyası ilə silahlanmış, tarixi türk torpaqlarında mövcud olan bir dövlətin geosiyasi alət rolundan imtina etmə çabaları ən azı bu səbəbdən dəstəklənməlidir.

Paşinyanın müraciətinin ana xəttini erməni xalqının Azərbaycana qarşı ərazi iddialarını unutmasına və siyasi manipulyasiya predmetinə çevrilmiş "ermənilərin Artsaxa qayıdışı", yaxud "erməni xalqının məcburi deportasiyası" kimi təxribatların gündəmdən yığışdırılması təşkil edir. Ermənistan lideri anlayır ki, bu kimi iddiaların davam etdirilməsi erməni xalqı və müasir erməni dövlətçiliyi üçün siyasi suisiddir. Erməni xalqı anlamalıdır ki, onun mifik, süni tarixə əsaslanan, başqalarının ərazisinə və irsinin qəsbinə yönəlmiş iddiaları faciələrinin başlıca mənbəyidir və öz mövcudluğu deyil, xarici güclərin aləti qismində istifadə edilib. Ermənilər bu reallığı nə qədər tez dərk etsələr, tarixin səhnəsində qalma şanslarını bir o qədər artıra bilərlər. Paşinyan bunu başa düşüb, qalır erməni cəmiyyəti.

# FRİDRİX MERTSİN YÜZ GÜNÜ

**Ziddiyyətli hərəkətlər Almaniya kansleri Fridrix Mertsin reytinqinin çökməsinə səbəb olub. Yüz gündən sonra alman seçicilərinin yalnız 30%-i onun hökumət başçısı kimi işindən razıdır. Bu, Mertsin sələfləri ilə müqayisədə eyni dövr üçün ən aşağı göstərici sayılır.**



AZƏR NURİYEV



Yüz gün öncə Fridrix Mertsin kanslerliyi rəsmiləşəndə Almaniya tarixində yeni bir səhifə açılacağını proqnoz edənlər artıq yanıldıqlarını etiraf edirlər. Hökumət başçısının ilk 100 gününü adətən "bal ayı" adlandırırlar. Bu dövr başa çatsa da, vətəndaşlar daha yaxşı dəyişikliklər hiss etmədilər. Yüz günün mənzərəsi belədir: iqtisadi durğunluq, artan işsizlik, inflyasiya.

### PROBLEMLƏR ARD-ARDA GƏLİR

Bu ilin ilk altı ayında Almaniya xarici ticarətdə sürəti itirir. Düzdür, ixracatçı ölkə kimi liderliyini saxlayır, lakin Çin və ABŞ bazarında itkilər bu üstünlüyün gələcəkdə darala biləcəyini göstərir. Xristian-Demokrat İttifaqının (CDU) lideri Fridrix Mertsin kansler seçilməsi postmerkel dövrünün zəif koordinasiyalı siyasətindən sonra Almaniyanın Avropa İttifaqında (Aİ) liderlik iddiasını bərpa etməyə yönəlmiş strategiyanın işarəsi kimi qiymətləndirilirdi. Lakin belə olmadı. Üç partiyanın - Xristian Demokratik İttifaqı (XDİ), Xristian Sosial İttifaqı (XSİ) və Almaniya Sosial Demokrat Partiyasının (ASDP) nümayəndələri tərəfindən bu posta irəli sürüldüyü andan problemlər yaşayan Mertsin reytinqi rekord səviyyədə aşağı düşüb. İş o yerə çatıb ki, qara-qırmızı hökumətin mövcudluğu yüz günlük həddə çatmadan faktiki olaraq sual altına düşüb. Problemlər ard-arda gəlir. Merts dövlət borcunun həcmini artırmaq imkanı əldə etmək üçün Almaniya tarixində misli görünməmiş Konstitusiyanı dəyişdirmək manevrinə getməli olub. Lakin yüz milyardlarla avro əlavə kredit Mertsə az kömək etdi, çünki onun səylərini Aİ və ABŞ arasında alovlanan ticarət müharibəsi demək olar ki, heçə endirdi. Yay tətilinə getməzdən əvvəl hökumət hətta 2025-ci il üçün büdcəni Bundestaqda təsdiq edə bilmədi. Kansler büdcədə yaranan boşluqları sosial xərcləri azaltmaq hesabına doldurmağa qərar verdi. Belə davam edərsə, koalision hökumət dağıla və yeni seçkilər keçirilə bilər.

## XARİCİ SİYASƏTDƏ GERİLƏMƏ

Mertsin ilk yüz gündə fəaliyyətinin ağırlıq mərkəzini xarici siyasətə köçürdüyünü deyənlər də var. Onun beynəlxalq arenada ilk addımlarından biri mayda Ukraynada atəşkəsə razılıq vermək məqsədilə Rusiya dövlətinin başçısına qarşı "ultimatum" irəli sürməsi oldu. Hələlik kanslerin özünü Avropanın lideri kimi göstərmək cəhdləri daha çox nümayişkaranə və deklarativ xarakter daşıyır. Eyni zamanda, onun Qəzza sektoru ilə bağlı mövqeyinə görə İsrailə hərbi yardımı dayandırmaq barədə son qərarı XDİ və xüsusilə XSİ sıralarında tənqidlə qarşılanıb. Bir sıra nəşrlər Mertsi Kiyevlə hərbi sahədə əməkdaşlığını nəzərə alaraq, ikili standartlarda günahlandırırlar. Nəticədə, ziddiyyətli hərəkətlər onun reytinqinin çökməsinə səbəb olub. Bu gün alman seçicilərinin yalnız 30%-i onun hökumət başçısı kimi işindən razıdır. KİV xatırladıb ki, yüz gündən sonra Şoltsda bu göstərici 43%, Angela Merkeldə isə 65% təşkil edirdi. Almanların 60%-i hökumətdən narazıdır, onun fəaliyyətini yalnız 27% bəyənir ki, bu da iyul ayındakı 44% narazı və 37% razı olanlarla müqayisədə əhəmiyyətli pisləşmədir.




## "KANSLER HEÇ BİR SÖZÜNÜ TUTMADI"

"Kleine Zeitung" nəşri yazır ki, Merts bir çox seçki vədini yerinə yetirə bilməyib: "Daha az miqrant, daha çox iqtisadi artım, daha qənaətli, lakin yenə də etibarlı sosial sistem, mükəmməl infrastruktur - hamısı da yeni borclanma olmadan. Kansler bunların demək olar ki, heç birini hələ reallaşdıra bilmədi və ya reallaşdırmaq istəmədi. Əlimizdə yalnız Şoltsun və Angela Merkelin ilk yüz günündən çox daha geridə qalan pis şəxsi rəqəmlər var".

Şolts hökuməti ilə paralellik aparan "Neue Zürcher Zeitung" islahatların yetərsiz qaldığını yazıb: "Hökumətin iqtidarda keçirdiyi yüz gündən sonra qonaqlıq artıq bitdi. Qara-qırmızı ittifaq əslində əlindəkini qorumağa çalışan bir qorxaq kimi davranır. Bir zamanlar var olan islahat istəyindən isə demək olar ki, əsər qalmayıb. Hökumət sosial dövləti kiçiltmək əvəzinə, getdikcə çürüyən bir sistemi möhkəmlədir və nəhəng bir borc dağı yaradır. İqtisadiyyatı canlandıracaq addımlar atmaq əvəzinə, subsidiyalarla onu keyləşdirir".

### "SİYASİ İNTİHARIN ŞAH ƏSƏRİ"

"The Spectator" ilk 100 gündən ən çox AfD-nin qazanclı çıxdığını vurğulayır: "Sadəcə siyasi bacarıqsızlığa şahid olmuruq, eyni zamanda demokratiyanın populistlərə qızıl nimçədə təqdim edilməsini də izləyirik - özü də müdafiə edildiyi zənn edilərək. Merts mühafizəkarların etibarlılığını yenidən təsis edəcək xilaskar kimi ortaya çıxmışdı. Amma bunun əvəzinə iqtidar illüziyası uğruna prinsiplərindən imtina etməyə hazır, onurğasız başqa bir siyasətçi olduğu anlaşıldı. Bu, ilk 100 gün bir uğursuzluq deyil, daha təhlükəli bir şeydir: hökumət fəaliyyəti qiyafəsində səhnələşdirilmiş bir siyasi intiharın şah əsəri. AfD-yə buraxsaq, bundan yaxşı bir əsər ortaya çıxara bilməzdi".

Beləliklə, Fridrix Mertsin kanslerliyi ilə Almaniyada və Aİ-də yeni bir dövrün başlandığını söyləmək artıq mümkün deyil. Onun rəhbərliyi altında Berlin həm iqtisadi, həm də geosiyasi baxımdan Aİ-nin əsas güc mərkəzinə çevrilmək iddiasını itirmək üzrədir.

BURADA SİZİN REKLAMINIZ OLA BİLƏR
Tel: (+994 55) 457-02-03 \ (+994 77) 447-47-17 E-mail: kaspiqazeti@kaspi.az

# SƏRNİŞİNLƏR BİR AZ DA GÖZLƏMƏLİ OLACAQLAR

Bakıda tıxac probleminin həlli istiqamətində işlər davam etdirilir. Yaxın zamanlarda avtobus zolaqlarının 160 kilometrə çatdırılması nəzərdə tutulur. Metropoliten isə həm yeni stansiyaların açılması, həm də mövcud sıxlığın azaldılması istiqamətində layihələrə start verib.




AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az

Yay fəslində Bakı şəhərində sıxlıq bir az azalsa da, nəqliyyatın hərəkəti, tıxaclar, ictimai nəqliyyatdan istifadə və infrastruktur problemləri aktuallığını saxlayır. İlin əvvəlində təsdiq olunan "Bakı şəhərində və ətraf ərazilərdə nəqliyyat infrastrukturunun təkmilləşdirilməsinə dair 2025-2030-cu illər üçün Dövlət Proqramı" bu sahədə əsas yol xəritəsinə çevrilib. Bəs, maraqlıdır, ilin yarısının geridə qaldığı bir vaxtda, proqramın icrası ilə bağlı hansı işlər görülüb?

### "AVTOBUS ZOLAQLARININ 160 KİLOMETRƏ ÇATDIRILMASI NƏZƏRDƏ TUTULUR"

Azərbaycan Yerüstü Nəqliyyat Agentliyindən (AYNA) "Kaspi" qəzetinə verilən məlumata görə, hazırda paytaxtın 40-a yaxın küçə və prospektində 110 kilometrdən artıq avtobus zolağı təşkil edilib: "Nəticədə avtobusların bu zolaqlarda orta sürəti artıb, marşrut üzrə hərəkət vaxtı xeyli azalıb. Yeni zolaqların salınması istiqamətində iş aparılır. Avtobus zolaqlarının 160 kilometrə çatdırılması nəzərdə tutulur".

### "DAVAMLI MİKROMOBİLLİK ZOLAĞI TƏŞKİL EDİLİR"

AYNA tərəfindən Bakı şəhərində davamlı mikromobillik zolağı da təşkil edilir. Bu proses qabaqcıl beynəlxalq təcrübə nəzərə alınmaqla layihələndirilir: "Mikromobillik zolaqlarının təşkili konseptual plan əsasında həyata keçirilir. Kəsintisiz mikromobillik zolağının təşkili üçün mərhələli qaydada velosiped yolları bir-biri ilə əlaqələndirilir. Son belə işlər Hüseyn Cavid prospektində görülüb və daha əvvəl təşkil edilən Mətbuat prospektindəki mikromobillik zolağı ilə birləşdirilib. Beləliklə, dairəvi hərəkət imkanı yaradılıb. Hazırda metronun "Elmlər Akademiyası" stansiyası ətrafındakı mikromobillik şəbəkəsinin şəhərin mərkəzi hissəsindəki şəbəkə ilə əlaqələndirilməsi həyata keçirilir. Həmçinin paytaxtın Nəcəfqulu Rəfiyev və İzzət Orucova küçələrində mikromobillik zolaqları salınıb. Bununla da Xocalı prospektindəki zolağın 8 Noyabr prospekti və Afiyəddin Cəlilov küçəsindəki zolaqlarla əlaqələndirilməsi həyata keçirilib".

## "Nişanlanma işləri aparılır, yol nişanları quraşdırılır"

**Həmçinin görülən işlər çərçivəsində müvafiq nişanlanma işləri aparılır, təhlükəsizlik məqsədilə yol nişanları quraşdırılır, əlçatanlığın təmin edilməsi üçün panduslar inşa olunur: "Avtomobillərlə yarana biləcək münaqişəli nöqtələrin aradan qaldırılması üçün təhlükəsizlik sədləri quraşdırılır, işıqforlarda velosiped bölmələri yaradılır. Əhali arasında velosiped və skuterlərdən istifadəyə artan marağı, eləcə də bu nəqliyyat növünün geniş istifadəsinin nəqliyyat sıxlığının azaldılması, ətraf mühitin qorunması, fiziki fəallığın artırılması və sağlam həyat tərzi baxımından əhəmiyyətini nəzərə alaraq, mikromobillik zolaqları şəbəkəsi genişləndirilir".**

## "İlk mərhələdə 1650 metrə yaxın dəmir yolu çəkiləcək"

**Nəqliyyat sahəsində tıxac və sıxlıqdan ən çox narazılıq edilən vasitələrdən biri də metrodur. İstilik, sərnişin sıxlığı, qatarların intervalı və havalandırma sistemi ilə bağlı müzakirələrə tez-tez rast gəlirik. Bəs Bakı Metropoliteni proqramın icrası ilə bağlı hansı işləri həyata keçirir? Qurumdan bildirildi ki, Dövlət Proqramına uyğun olaraq, 2025-ci ildə Qırmızı və Yaşıl xətlərin ayrılması layihəsi üzrə mərhələli işlərə başlanılıb: "Türkiyənin "Yüksel Proje" şirkəti ilə müqavilə imzalanıb. Anlaşma çərçivəsində Yaşıl xəttin Y14-Y17 və Bənövşəyi xətt üzrə B5-B8 stansiyaları və bu stansiyalar arasında tunellərin layihələndirilməsi, "28 May" stansiyasında Yaşıl və Qırmızı xətlərin ayrılmasının layihələndirilməsi, "İçərişəhər" stansiyasında keçid kamerası, geri dönüş tuneli və yeraltı avtomobil dayanacağının layihələndirilməsi nəzərdə tutulur. Eyni zamanda, "Dərnəgül" elektrik deposunun inşasına başlanılıb. İlkin mərhələdə burada qatarların gecələməsi, baxış və qulluğu üçün ümumilikdə hər birinin uzunluğu 103 metr olan 27 qanov nəzərdə tutulub. Birinci mərhələdə təhvil verilməsi planlaşdırılan yeddi qanovun inşası işləri davam etdirilir. Ümumilikdə ilk mərhələdə 1650 metrə yaxın dəmir yolu çəkiləcək və onları bir-biri ilə əlaqələndirən 15 yoldəyişdirici qurğu quraşdırılacaq. Sərnişinlərin şəhərə daha rahat gediş-gəlişini təmin etmək məqsədilə "Dərnəgül" elektrik deposunun yaxınlığında eyniadlı yerüstü stansiya da inşa ediləcək".**

## "Yeni stansiyaların tikintisi nəzərdə tutulur"

Qurumdan bildirildi ki, hazırda Bənövşəyi xəttin layihə adı "B-04" olan stansiyasında inşaatın əsas mərhələsi üzrə işlər davam etdirilir: "İnşaat işlərinin 2026-cı ilin birinci yarısında yekunlaşdırılması nəzərdə tutulur. Həmçinin yaxın illərdə Bakı Metropolitenində bir sıra yeniliklər planlaşdırılır. Belə ki, "Dərnəgül" elektrik deposunun tikintisi çərçivəsində təmir-baxış sahələrinin inşası, tunellərdə yolların qurulması işləri davam etdirilir. 2026–2030-cu illərdə "Dərnəgül" deposunda işlərin tamamlanması, iki yeni elektrik yarımstansiyasının inşası, elektrik təchizatı sisteminin optimallaşdırılması, "İçərişəhər" stansiyasının arxasında dönmə kamerasının inşası nəzərdə tutulub. Bundan əlavə, hazırda 10 yeni stansiya ilə bağlı layihələndirmə, trasların müəyyən edilməsi və digər təşkilati məsələlər üzrə işlər aparılır. Yaşıl xətdə - Ağ şəhər, NZS, Nargilə və Həzi Aslanov-2 ərazilərində; Bənövşəyi xətdə isə "B-4" stansiyasından sonra "Nizami", "Sahil", "Xətai" stansiyaları, "Neftçilər" xəstəxanasının yaxınlığında və Ağ şəhər layihəsini əhatə edən zonalarda yeni stansiyaların tikintisi nəzərdə tutulur".

## "30 yeni tipli vaqon gətiriləcək"

2025-ci ilin son rübündə yeni qatarların istismara verilməsi prosesinə də başlanacaq: "Pik saatlarda metropoliten xətlərində bir saatda hər iki istiqamətdə hərəkət edən qatar cütlərinin sayı son 16 ildə 30-dan 32-yə yüksəldilib. Bu məqsədilə yeni rəqəmsal hərəkət cədvəli tərtib olunub. Yeni qrafikə əsasən, qatarlararası hərəkət intervalı texniki təhlükəsizlik tələbləri tam yerinə yetirilməklə iki dəqiqədən 1 dəqiqə 52 saniyəyə endirilib. Bununla yanaşı, vaqon parkının yeniləşməsi istiqamətində işlər davam etdirilir. Bu ilin sonunadək Bakıya 30 yeni tipli vaqon (hər biri 5 vaqondan ibarət 6 qatar) gətiriləcək. Bununla Bakı metropoliteni xətlərində hərəkətdə olan yeni vaqonların sayı 180-ə çatdırılacaq".

Proqramda müzakirə olunan istiqamətlərdən biri də universitetlərin köçürülməsi məsələsidir. Proqramın təsdiq olunduğu vaxtdan indiyədək görülən işlərlə bağlı Elm və Təhsil Nazirliyinə də sorğu ünvanladıq. Nazirlikdən verilən məlumata görə, müvafiq istiqamətdə araşdırmalar aparılır, mümkün variantlar nəzərdən keçirilir. Nəticələr barədə ictimaiyyətə məlumat veriləcək.

BAKIDA QƏZALI YAŞAYIŞ BİNALARININ İNVENTARİZASİYASI PROSESİ BAŞA ÇATIB

# ƏMLAK QİYMƏTLƏRİ YENİDƏN ARTACAQ

Söküntülər əmlak bazarına təsirsiz ötüşmür. Belə ki, hər söküntü zamanı qiymətlər artır. Ekspertlər bildirirlər ki, bu məsələdə əsas amil bazarda alıcıların sayının çoxalmasıdır.



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

Bakının mərkəzi rayonlarında şəhərin estetik görkəminə xələl gətirən, qəzalı vəziyyətdə olan və istismar müddətini bitirmiş yaşayış binalarının inventarizasiyası prosesi başa çatıb. Bakı Şəhər İcra Hakimiyyətində Prezident İlham Əliyevin tapşırıq və göstərişlərindən irəli gələn məsələlərlə bağlı müşavirə keçirilib. Müşavirə zamanı paytaxtda şəhərin estetik görkəminə xələl gətirən, qəzalı vəziyyətdə olan və istismar müddətini bitirmiş yaşayış binaları ilə bağlı xüsusi Komissiya yaradılması qərara alınıb. Bakının müxtəlif ərazilərində uzun illər əvvəl tikilən və müasir standartlara uyğun olmayan binaların hələ də mövcud olması nəzərə alınaraq, Komissiyaya tapşırıq verilib ki, bununla bağlı məsələ tam araşdırılsın, xüsusi riskli zonalar müəyyən edilsin və bu problemin həlli yolları aidiyyəti qurumlarla birlikdə öyrənilsin.

Maraqlıdır, görəsən söküntülər hansı ərazilərdə olacaq? Ərazilərin sökülməsi mənzil bazarına da təsir edəcəkmi?

### "BAKI BAŞ PLANDA NƏZƏRDƏ TUTULAN FORMADA OLACAQ"

Daşınmaz əmlak üzrə ekspert Elnur Fərzəliyevin sözlərinə görə, söküntülər həm dövlət ehtiyacı, həm də yeni yaşayış binalarının tikilməsi üçün aparılır: "2021-ci ildə Bakının baş planı təsdiq olundu. 2040-cı ilə qədər Bakı şəhəri Baş planda nəzərdə tutulan formada olacaq. Bu il Baş planın icrası ilə bağlı işlər daha sürətli gedir. Artıq paytaxtda çox sayda istismar müddətini bitirmiş binalar, yaşayış evləri sökülüb. Proses davam etdirilir. Onların yerində parklar, yollar, inzibati binalar inşa olunacaq. Sökülməli ərazilərlə bağlı monitorinqlər, planlamalar aparılır. Qiymətləndirmələrdən sonra qərar verilir. Dövlət ehtiyacı üçün sökülən ərazilərdə vətəndaşlara kompensasiya olaraq pul verilir. Bu işlər mərhələli şəkildə görülür. Yeni yolların çəkilməsi ilə də bağlı müəyyən ərazilərdə söküntü işləri aparılır. Yeni çəkiləcək yolların üzərində olan yaşayış evləri qiymətləndirilərək sökülür və vətəndaşlara kompensasiya məbləği ödənilir".



Elnur Fərzəliyev



## "TARİXİ BİNALAR MAKSİMUM QORUNUR"



E.Fərzəliyev hazırda söküntü işləri həyata keçirilən yaşayış massivlərindən bəhs etdi: "Hazırda Yasamal ərazisində keçmiş "sovetski" adlanan ərazidə söküntü işləri həyata keçirilir. Oradakı bütün binalar sökülmür. Çünki xeyli tarixi abidə mövcuddur. Məscidlər, hamamlar, kitabxanalar və digər qədim abidə hesab olunan yaşayış binaları da var. Tarixi binalar müəyyən edildikdən sonra onlara söküntü zamanı zərər gəlməməsi üçün maksimum qorunur. Ərazi söküldükdən sonra həmin ərazidə park salınacaq. İkinci İçərişəhər tipli 16-19-cu əsrə aid milli qoruq kimi qorunub saxlanılacaq. Nəsimi rayonunda da kiçik həcmli söküntülər gedir. Yəqin ki, yaxın gələcəkdə söküntülərin miqyası daha da böyüyəcək. O zaman hansı ərazilərin konkret olaraq nə zaman söküləcəyi bəlli olacaq".

Ekspertin fikrincə, söküntülərin həm müsbət, həm də mənfi tərəfləri mövcuddur: "Burada bir məsələni də qeyd etməliyik. Hansı ki, köhnə evlərin istər kirayə, istərsə də satış qiyməti yenilərə nisbətən dəfələrlə ucuz idi. Lakin söküldükləri üçün həmin mənzillər əmlak bazarından çıxmış olur. Bu da onu deməyə əsas verir ki, yaxın gələcəkdə paytaxtda kirayə mənzillərin qiymətləri indiki qiymətlərdən dəfələrlə baha olacaq. Çünki yeni binalar daha baha təqdim edilir. Amma hər bir halda Bakı köhnə yaşayış binalarından qurtulmuş olur. Çünki həmin mənzillər təhlükə mənbəyidir. Hər hansı zəlzələ, subasma, sürüşmə nəticəsində həmin ərazilərdə böyük dağıntılar yarana bilər".

## NƏSİMİ, YASAMAL, NƏRİMANOV RAYONLARI

Əmlak məsələləri üzrə ekspert Anar Nəsirov da bildirdi ki, söhbət istismar müddəti başa çatmış və qəzalı şəraitdə olan binalardan və həyət evlərindən gedir: "İstismar müddəti bitən binaların əksəriyyəti söküləcək. Amma öncəlik qəzalı əmlaklardır. Köhnə binalar sökülərək yerində yeni binalar inşa edilir. Bu həm şəhərin gözəlliyinə, həm insanların rahat yaşamına səbəb olur. Nəsimi, Yasamal, Nərimanov rayonları istiqamətində daha çox söküntü prosesi gedir".

A.Nəsirov həmçinin vurğuladı ki, sökülən mənzillər üçün kompensasiya verilməlidir: "Ya vətəndaşa pul, ya da yeni binadan ev nəzərdə tutulur. Pul məbləği ailənin sayı, yaxud mənzilin otaqlarının sayına görə hesablanır. Hər şey qarşılıqlı razılaşma əsasında tənzimlənməlidir. Razılaşma olmasa məhkəmə yolu ilə həll edilir".

Ekspertin fikrincə, sökülən ərazilərdəki abidələr nəzarətə götürülür: "Tarixi binalar və memarlıq abidələri söküntüyə daxil deyil. Əsasən bu kimi yerlərdə söküntü işləri həyata keçirilmir. Əgər keçirilərsə, söküntü yaxınlığında abidələr qorunur. Abidələrə zərər dəyərsə, şirkətlərin qarşısına tələblər qoyulur. Həmin abidələr yenidən bərpa olunur".

A.Nəsirov söküntülərin əmlak bazarına təsirindən də danışdı: "Söküntülər əmlak bazarına təsirsiz ötüşmür. Belə ki, hər söküntü zamanı qiymətlər artır. Bunun da səbəbi odur ki, evi sökülən kompensasiya alan vətəndaş yenidən bazara üz tutur. Alıcı artdıqca da əmlak bazarında qiymət artır".



Anar Nəsirov

# MƏHSUL UCUZ, SEÇİM ÇOX

**2025-ci ilin payız tədris mövsümü yaxınlaşdıqca, məktəbli ləvazimatları bazarında diqqətçəkən tendensiya müşahidə olunur. Qiymətlər keçən illə müqayisədə aşağı enib.**


AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az

Yeni dərs ilinə bir aydan az vaxt qalır. Valideynlər artıq məktəb bazarlığına start veriblər. Hər il olduğu kimi, bu il də onları xərclər düşündürür. Xüsusilə məktəbli formalarının qiyməti, keyfiyyəti və mövcud endirim kampaniyaları əsas maraq mövzularındandır. Dəftər-qələm, məktəbli geyimi, çanta və digər ləvazimatların alınması bu günlərdə ailə büdcəsinə ən çox təsir edən xərclərdən birinə çevrilib. Bəs, maraqlıdır, bir uşağı məktəbə hazırlamaq bu il neçəyə başa gələcək?

### "BU İL QİYMƏTLƏR ENİB"

Valideyn Azər Rəhimov bu il iki övladını məktəbə hazırlayır və bazarda qiymətlərin münasib olduğunu deyir. Onun sözlərinə görə, bu il təkcə qiymətlər sabit qalmayıb, hətta müəyyən məhsullarda ucuzlaşma da müşahidə olunur: "İki uşağımın dəftər-qələm, yazı ləvazimatlarına cəmi 40 manat xərclədim. Ötən il bu qədər məhsula daha çox pul verməmişdim. Geyimlər də ucuzlaşıb. Məsələn, şalvar və köynəklər ən aşağı 13 manatdan başlayır. Təbii ki, 70-80 manata qədər modellər də var. Əsas odur ki, bu il bazarda hər büdcəyə uyğun seçim mövcuddur".

Valideyn bildirir ki, bazarda Çin məhsulları çoxdur və rəqabət yarandığı üçün bu il endirimli qiymətləri müşahidə edirlər. Üstəlik, elektron ticarət də bu ucuzlaşmada mühüm rol oynayır. Elektron ticarətlə rəqabət aparan mağazalar da bazarda endirimlərlə sözünü deməyə can atır.

### MƏKTƏBLİ LƏVAZİMATLARI NEÇƏYƏDİR?

Bazarda qiymətləri öyrənmək, bir uşağın məktəb xərclərini hesablamaq üçün məktəbli ləvazimatları satılan mağazaya üz tutduq. Qiymətlər belədir:

- dəftərlər 15 qəpik - 2,2 manat;
- flomasterlər 90 qəpik -11 manat;
- karandaşyonanlar 30 qəpik – 4,3 manat;
- penallar 1,9 - 30 manat;
- qələmlər 30 qəpik -7,9 manat;
- su qabı 2,6 -11 manat...

Məktəbli ləvazimatları arasında ən çox xərc tələb edən məktəbli çantalarının qiyməti isə 16 manatdan başlayır, 180 manata qədər davam edir.



Yəni, bir uşağın geyimdən əlavə məktəb ləvazimatları üçün valideyn minimum 20-25 manat xərcləməlidir. Ötən il isə bu rəqəm minimum 35-40 manat idi. Qiymətlər məhsulun keyfiyyəti, istehsal ölkəsi və brendindən asılı olaraq dəyişir. Bu müxtəliflik valideynlərə büdcələrinə uyğun seçim etməyə imkan verir.

### 8 MANATA KÖYNƏK, 15 MANATA ŞALVAR...

Yeni dərs ilinə hazırlıq zamanı valideynlərin ən çox diqqət yetirdiyi, şagirdlərin də həyəcanla gözlədiyi məqam məktəbli geyimlərinin alınmasıdır. Bu məhsullar həm qiymət, həm də çeşid baxımından geniş spektrə malikdir. Bazarda şalvarların qiyməti 10 manatdan başlayır, 80 manata qədər yüksəlir. Köynəklər 7-8 manatdan başlayır. Hətta sosial şəbəkələrdə üç manata təklif edilən köynəklərə də rast gəlmək mümkündür. Ətəklər 15 manatdan başlayaraq keyfiyyət və brendə görə 150 manata qədər qalxır. Qollu köynək və jaketlər isə əsasən 20 manatdan başlayır.

Etibar Əzimov

Elxan Mərdanlı

Foto: Sabir Məmmədov - Global Photostock

### OTUZ MANATDAN İYİRMİ MANATA...

Bəs, görəsən, Bakı Tikiş Evinin (BTE) qiymət siyasəti bazarla necə uzlaşır?

BTE-nin şöbə müdiri Etibar Əzimov "Kaspi"yə açıqlamasında bildirdi ki, Bakı Tikiş Evi bu il məktəbli geyimlərində kifayət qədər ciddi endirimlər tətbiq edib: "Bütün qısaqol köynəklər 33% ucuzlaşaraq 12 manatdan 8 manata düşüb, uzunqol köynəklər isə təxminən 18% endirimlə 12 manatdan 10 manata enib, şalvar və ətəklərdə 25% endirim tətbiq olunaraq 20 manatdan 15 manata salınıb, jaketlərdə də 33% endirim olunaraq qiymətlər 30 manatdan 20 manata qədər azaldılıb".

BTE-nin nümayəndəsi bildirir ki, bu endirimlər valideynləri keyfiyyətsiz, mənşəyi bilinməyən məhsullardan çəkindirmək məqsədi daşıyır: "Nazirlər Kabinetinin qərarına əsasən, məktəbli formalarında istifadə edilən materiallar standartlara uyğun olmalıdır. Köynəklər 100% pambıqdan, şalvar və ətəklər isə 60% yun, 40% polyester qarışığından hazırlanmalıdır. Təəssüf ki, bazarda bu tələblərə cavab verməyən, süni materiallardan hazırlanmış məhsullar satılır. Biz qiymətləri aşağı salaraq insanları keyfiyyətli və sertifikatlı məhsullara yönəltmək istəyirik".

### BAZARI ÇİN MƏHSULLARI TUTUR

Marketoloq Elxan Mərdanlı da "Kaspi"yə açıqlamasında təsdiqlədi ki, 2025-ci ilin payız tədris mövsümünə yaxınlaşdıqca, Bakı bazarında diqqətçəkən tendensiya müşahidə olunur: "Dəftərxana ləvazimatlarının qiymətləri 2024-cü illə müqayisədə daha ucuzdur. Səbəbləri bir neçə istiqamətdə toplamaq mümkündür. Birinci istiqamət, Türkiyədən idxal bahalaşıb, bazar Çinə yönəlib".

Qiymətlərin ucuzlaşmasında digər səbəb isə Bakı bazarında alıcılıq qabiliyyətinin zəifləməsidir: "Azərbaycan əhalisinin real gəlirləri artmadığı halda gündəlik istehlak xərcləri yüksəlib. Bu isə alıcılıq qabiliyyətini zəiflədir. Nəticədə, dəftərxana mağazaları dövriyyəni saxlamaq üçün qiymətləri aşağı salmağa məcburdur. Əks halda, satış həcmi daha da geriləyər".


Foto: Əhməd Hətəmzadə - Global Photostock

### TƏLƏB ARTDIQDA, QİYMƏTLƏR YÜKSƏLƏCƏK?

Marketoloqa görə digər səbəb tələbin gecikməsi və qiymətlərin hələlik sabit qalmasıdır: "Azərbaycan cəmiyyətində məktəb alış-verişinin ən son günlərə saxlanılması da bu mənzərəyə təsir edir.

Avqustun sonu və sentyabrın əvvəllərində kəskin tələb artımı müşahidə olunmadığından qiymətlər stabilliyini qoruyur. Satıcı mövsümün pik günlərinə qədər qiymətləri yuxarı qaldırmaq üçün heç bir səbəb görmür. Bu faktorlar qısa müddətli sabitlik və ucuzlaşma yaratsa da, sentyabrın sonu və oktyabrda tələb artdıqda qiymətlərin müəyyən yüksəlişi mümkündür".

# QARS-NAXÇIVAN DƏMİR YOLUNUN TİKİNTİSİNƏ START VERİLDİ



**Layihə üçün 2,4 milyard avro məbləğində xarici maliyyələşdirmə təmin edilib. Bu xətt 224 kilometr uzunluğunda, iki xətli, elektrikləşdirilmiş və siqnallaşdırılmış şəkildə inşa ediləcək.**

Avqustun 22-də Türkiyənin şərqindəki İğdır vilayətində Qars-İğdır-Aralık-Dilucu dəmir yolunun (Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə sərhədi) tikintisinə başlanması mərasimi keçirilib.

### AVRASİYANIN GƏLƏCƏYİNƏ TƏSİR EDƏCƏK TƏŞƏBBÜS

Türkiyənin nəqliyyat və infrastruktur naziri Abdülkadir Uraloğlu mərasim iştirakçıları qarşısında çıxış edib.

Uraloğlu 224 kilometrlik Qars-Naxçıvan dəmir yolunu Türkiyənin regional və qlobal aktorlar ilə əlaqələrinin inkişafı üçün mühüm təkan, Ankaranın geostrateji liderliyinə töhfə adlandırıb.

"Yeni dəmir yolu marşrutunun işə düşməsi ilə Cənubi Qafqazda sülh və inkişafın yeni səhifəsi açılacaq. Biz bütün Avrasiyanın gələcəyinə təsir edəcək bir təşəbbüs həyata keçiririk", - deyə Türkiyə Nəqliyyat Nazirliyinin rəhbəri vurğulayıb.

### TÜRKİYƏ VƏ AZƏRBAYCANI BİRLƏŞDİRƏN KÖRPÜ

Uraloğlu Qərblə Şərq arasında təbii körpü olan Türkiyənin geostrateji mövqeyinə diqqət çəkərək ölkənin beynəlxalq əhəmiyyətli logistika, nəqliyyat və ticarət mərkəzinə çevrilməsinə imkan yaradan meqalayihələri sadalayıb. Onun sözlərinə görə, Türkiyə hökuməti son onilliklərdə respublikanın dəmir yolu şəbəkələrinin inkişafına xüsusi diqqət yetirir, dəmir yollarını ölkənin aparıcı limanları və sənaye zonaları ilə birləşdirməyə çalışır. "Son 23 ildə Türkiyənin nəqliyyat sektoruna qoyulmuş 300 milyard dollar sərmayənin 64 milyard dolları dəmir yollarına sərf olunub", - deyə nazir bildirib.

O əlavə edib: "Bu gün biz təkcə dəmir yolunun tikintisinin başlanması mərasimində iştirak etmirik, həm də Türkiyə, Azərbaycan və Ermənistanı birləşdirən körpünün təməlqoyma mərasiminin canlı şahidləriyik. Bu layihə Pekindən Londona qədər geniş ərazidə sosial-iqtisadi əlaqələrin hərtərəfli inkişafı üçün stimul olacaq".

### ZƏNGƏZUR DƏHLİZİNİN MÜHÜM HALQASI

Nazir vurğulayıb ki, Qars-Naxçıvan dəmir yolu Zəngəzur dəhlizinin həyata keçirilməsi istiqamətində atılan konkret addım və Avrasiyada sülh və əməkdaşlıq üzrə Yol Xəritəsidir.

Nəqliyyat Nazirliyinin rəhbəri yeni dəmir yolunun Türkiyənin mərkəzi nəqliyyat arteriyalarından birinə çevriləcəyinə əminliyini bildirib. O əlavə edib ki, Zəngəzur dəhlizinin mühüm halqası olan strateji layihənin 4-5 il ərzində başa çatdırılması planlaşdırılır.

Qeyd edək ki, layihə üçün Türkiyə Xəzinə və Maliyyə Nazirliyi tərəfindən görülən işlər nəticəsində 2,4 milyard avro məbləğində xarici maliyyələşdirmə təmin edilib. Bu xətt 224 kilometr uzunluğunda, iki xətli, elektrikləşdirilmiş və siqnallaşdırılmış şəkildə inşa ediləcək. Xətt illik 5,5 milyon sərnişin və 15 milyon ton yükdaşıma qabiliyyətinə malik olacaq. Layihə çərçivəsində 24 tunel, 10 körpü, 144 alt keçid, 27 üst keçid, 480 suötürücü və s. inşası nəzərdə tutulur.



# SOCAR-CC7 ƏMƏKDAŞLIĞI MÜZAKİRƏ EDİLİB



SOCAR-ın prezidenti Rövşən Nəcəf Çin Milli Kimya Mühəndisliyi və İnşaat Korporasiyasının (CC7) İdarə Heyyətinin sədri Long Haiyangın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb. Bu barədə "Report"a SOCAR-dan bildirilib.

Görüşdə SOCAR-ın enerji sektoru üzrə fəaliyyət istiqamətləri, Azərbaycanda və xarici ölkələrdə həyata keçirdiyi strateji layihələr barədə məlumat verilib. Azərbaycan və üçüncü ölkələrdə neft və neft-kimya sənayesi sahəsində mümkün əməkdaşlıq imkanları müzakirə edilib.

Qeyd edək ki, CC7 Çinin ən böyük EPC podratçılarından biri olan CNCEC-in törəmə şirkətidir. 1964-cü ildə əsası qoyulmuş və baş ofisi Çenqdu şəhərində yerləşən CC7 Asiya, Yaxın Şərq və Afrikada kimya və qeyri-kimya sektorlarında fəaliyyət göstərir.




# "NAR" NÜFUZLU "STEVİE" MÜKAFATINA LAYİQ GÖRÜLDÜ

Sərfəli xidmətləri ilə yanaşı, cəmiyyətə dəyər qatan təşəbbüsləri ilə fərqlənən "Nar" Beynəlxalq Biznes Mükafatlarında "İlin Kommunikasiya və ya PR kampaniyası" nominasiyasında "Gümüş Stevie" mükafatına layiq görüldü.

"Nar"ın mükafata layiq görülən sosial layihəsi nitq və eşitmə məhdudiyyətli şəxslərə yönəlmiş "Təlim məktəbi" iştirakçıların peşə bacarıqlarını inkişaf etdirməklə yanaşı, onların əmək bazarına inteqrasiyasına və müstəqil fəaliyyət imkanlarının genişlənməsinə dəstək olur. Layihə çərçivəsində 200-dən çox gəncə müxtəlif peşələr üzrə təlim və dəstək göstərilib.

Qeyd edək ki, bu il Beynəlxalq Biznes Mükafatlarına 78 ölkədən 3800-dən çox müraciət olub. Layihələr müxtəlif ölkələri təmsil edən, ümumi tərkibi 250-dən çox mütəxəssisdən ibarət olan doqquz münsif heyəti tərəfindən dəyərləndirilib.

"Nar"ın İctimaiyyətlə əlaqələr və korporativ ünsiyyət departamentinin rəhbəri Hökümə Kərimova bildirib: "Eşitmə və nitq məhdudiyyətli şəxslərə yönəlmiş sosial layihələrimiz onların həyat keyfiyyətinin yaxşılaşmasına və cəmiyyətdə bərabər imkanların yaradılmasına mühüm töhfə verir. "Nar"ın inklüziv cəmiyyət qurmaq istiqamətində atdığı strateji addımların beynəlxalq miqyasda tanınması və nüfuzlu mükafatla dəyərləndirilməsi sosial məsuliyyət strategiyamızın uğurla həyata keçirildiyinin göstəricisidir".

"Stevie Awards" 2002-ci ildə ABŞ-da təsis olunub və dünyanın müxtəlif ölkələrində fəaliyyət göstərən şirkətlərin və fərdlərin biznes sahəsindəki nailiyyətlərini qiymətləndirir. Mükafat qalibləri uğurlu nümunə kimi təqdim olunur. Qeyd edək ki, "Nar" bu nüfuzlu mükafata artıq üçüncü dəfə layiq görülür.

Kaspi
Təsisçi
**Global Media Group**
Baş redaktor
**İlham Quliyev**
Redaksiya
Baş redaktorun müavini - **Azad Əliyev**
Müxbirlər – **Təranə Məhərrəmova, Aygün Əziz, Zərif Salmanlı**
Müəlliflər – **Azər Nuriyev, Rüstəm Qaraxanlı, Xanım Aydın, Aqşin Kərimov, Sevinc Abbasova, Faiq Tahirov**
Korrektor – **Vüsal Əliyev**
Texniki şöbə
Kreativ direktor – **Murad Arbay**
Dizaynerlər
**Lalə Qasımova, İlham İsmayılov, Aydan Məmmədli**
Yayım və satış meneceri
**Vadim Manafov**
Ünvan
**Bakı, Səməd Vurğun 34, AF Mall**
**Telefon: (012) 525 03 31**
**kaspiqazeti@kaspi.az**
Qəzet "Azərbaycan" nəşriyyatında çap olunub.
Sifariş: 1720
Tiraj: 2350
Müəlliflərin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.

BU VƏZİYYƏT PAYTAXTIN EKOLOJİ TƏMİZLİYİNƏ CİDDİ TƏSİR GÖSTƏRİR

# BAKININ MƏRKƏZİNDƏN YOXA ÇIXAN ZİBİL QABLARI

Son zamanlar paytaxtın mərkəzi küçələrində kiçikölçülü zibil qabları – urnaların sayı azaldılır. Bu isə sakinlərin haqlı narazılığına səbəb olur. Urnalar küçələrdə adətən 100 metrdən bir qoyulur. Əhalinin daha sıx olduğu yerlərdə standart 50 metrdir.



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

Bakıda COP29 ərəfəsində əksər küçələrdə kiçik ölçülü zibil qabları - urnalar quraşdırılmışdı. Sakinlər, turistlər əllərindəki tullantıları rahatlıqla qısa vaxtda zibil qabı tapıb ata bilirdi. Son zamanlar isə vətəndaşlar şikayət edir ki, əksər zibil qabları sökülüb. Bir çox ərazilərdə belə hallar mövcuddur. Bu səbəbdən də vətəndaşlar ətrafda zibil qabı tapa bilmir və zibili yerə tullayır. Vətəndaşlar iddia edirlər ki, zibil qablarının yığışdırılmasının səbəbi daha çox cərimə yazıla bilməsi üçündür.

### "HƏR BİR MKTB ÖZ ƏRAZİSİNƏ CAVABDEHDİR"

Bakı Şəhər İcra Hakimiyyətinin Mətbuat xidməti rəhbəri Mətin Hüseynovun sözlərinə görə, zibil qablarını hər rayon üzrə Mənzil Kommunal Təsərrüfatı Birlikləri yerləşdirir: "Hər bir MKTB öz ərazisinə cavabdehdir. Yəni vətəndaş konkret ərazi üzrə həmin qurumlara müraciət etməlidir. Bakı Şəhər Mənzil-Kommunal Təsərrüfatı departamenti isə narıncı və yaşıl konteynerləri yerləşdirir. Amma siz dediyiniz zibil qabları, yəni urnaları hər rayon öz tələbatına görə yerləşdirir".

Bakı Şəhər Mənzil-Kommunal Təsərrüfatı Departamentindən bildirildi ki, zibil qutuları küçələrdə əsasən 100 metrdən bir yerləşdirilir və bu, ümumi standartdır: "Sadəcə əhalinin daha sıx olduğu yerlərdə artıq standart 50 metr olur. Məsələn, "Fəvvarələr bağı" kimi insanların çox toplaşdığı yerlərdə bu məsafə 50 metrə qədər azaldılır. Amma standart 100 metrlik məsafədir".



Sadiq Həsənov

Urbanist Anar Əliyevin fikrincə, zibil qabları şəhərlərin ayrılmaz hissəsidir: "Yerə zibil atmaq qəbulolunmazdır. Lakin insanların zibili yerə atmaması üçün zibil qabları mütləq olmalıdır. Çünki bu şəhər infrastrukturunun bir parçasıdır. Ən az 100 metrdən bir zibil qabları olması vacibdir".

### "40 METRDƏN AZ OLMAYARAQ ZİBİL QUTULARI QURAŞDIRILMALIDIR"

Ekoloq Sadiq Həsənovun sözlərinə görə, COP29 dövründə bu işlərə çox ciddi yanaşılırdı. Bu tədbirdən sonra da ənənələri davam etdirməliyik: "Zibil qutularının qoyulması qanunvericilikdə əks olunub. Nazirlər Kabinetinin 2005-ci il 74 saylı qərarında konkret məsafələr qeyd olunub. Parklar və xiyabanlarda zibil qutuları arasında məsafə 40 metrdən az olmamalıdır. Daha çox insanların olduğu ərazilərdə isə 10-50 metr arası nəzərdə tutulub. Zənnimcə tullantı qabları qəsdən yığışdırılmayıb. Ola bilsin ki, hansısa ərazilərdə tullantı qabları çatışmadığından bir az saylarını azaldıblar. Ancaq hər bir halda bu nizamlanmalıdır. Hansı rayonlarda ki, zibil qabı yoxdur, həmin ərazilərdə bələdiyyələrə, yaxud icra hakimiyyətlərinə müraciət etməliyik ki, problemi həll etsinlər".

S.Həsənov bildirdi ki, zibilin yerə atılması təkcə təbiətə yox, həm də bizim sağlamlığımıza ziyandır: "Zibil qabı olmayan ərazilərdə insanların zibili yerə atması qəbul edilən hal deyil. Əgər ətrafda zibil qabı yoxdursa, qarşına zibil qabı çıxana qədər onu saxlamaq lazımdır. Ətraf mühitə atdığımız hər tullantı müəyyən formada bizə geri dönür. Həm ərazini çirkləndirir, həm də külək vasitəsilə ətrafa yayılır. Qida maddələri sürətlə parçalanıb zəhərli qazlar yaradır. Hansı ki, bəzən zibil qalıqlarının yanından keçdikdə xoşagəlməz qoxunu hiss edirik".



Küçələrdə urnalar əsasən 100 metrdən bir yerləşdirilir



## "BU, DÜZGÜN YANAŞMA DEYİL"



Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin üzvü Rövşən Muradov da düşünür ki, insanlar bu kimi hallarda müvafiq qurumları xəbərdar etməlidir: "Ola bilər ki, zibil qutusunu kimlərsə oğurlayır, yaxud müəyyən səbəblərdən yığışdırılır. Bütün ərazilərə nəzarət edən qurumlar var. Onlar bu zibil qablarına məsuliyyət daşıyırlar. Urnalara müvafiq rayon icra orqanları, icra hakimiyyətlərinin nəzdində kommunal təsərrüfat birlikləri baxır".

R.Muradovun fikrincə, hər kəs əlindəki tullantını özü daşımalı və lazım olan yerə atmalıdır: "Məsələn, Yaponiyada siqaret çəkənlərin hər birinin əlində xüsusi qablar olur. Onlar hətta siqaretin külünü belə çölə atmırlar. Külünü də qaba tökürlər və tullantı üçün nəzərdə tutulan qutulara boşaldırlar. Bəzən görürük ki, insanlar tum çırtlayıb yerə tökür. İrad da bildirəndə deyirlər ki, onsuz da kimsə süpürəcək. Amma bu, düzgün yanaşma deyil. Hər kəsin əlində paketi olmalıdır ki, zibili olanda və qutu tapmayanda oraya ata bilsin. Çünki yerə zibil atmağa görə İnzibati Xətalar Məcəlləsində cərimələr nəzərdə tutulub. Ətraf mühitin mühafizəsi haqqında qanun mövcuddur. Orada bu kimi məsələlər qeyd olunub".

### "CƏRİMƏDƏN ƏLAVƏ, MAARİFLƏNMƏ DƏ OLMALIDIR"

Deputatın sözlərinə görə, cərimələrdən əlavə, insanları maarifləndirmək də lazımdır: "İnsanlar başa düşməlidirlər ki, urnanın olmaması ətrafı çirkləndirməyə səbəb ola bilməz. Təkcə şəhərdə yox, dənizdə, meşədə də bəzən görürük ki, insanlar zibillərini tullayıb gedir, maşından yerə atırlar. Amma Azərbaycan bizim torpağımızdır, onu qorumaq, təmiz saxlamaq hamımızın vəzifə borcumuzdur".



Rövşən Muradov

# SÜKANI BELƏ SAXLA!

Dövlət Yol Polisinin xəbərdarlığı sürücülər arasında çaşqınlıq yaradıb. Xəbərdarlıqda sükanın tək əllə idarə edilməsi və bir əlin avtomobilin pəncərəsindən çölə çıxarılmasının təhlükəli olduğu bildirilir.



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

Bəzi sürücülərin avtomobildə hərəkətdə olan zaman əlini pəncərədən çölə çıxarması qəza riskini artırır. Bu barədə Bakı şəhər Dövlət Yol Polisi İdarəsinin müraciətində qeyd olunub. Yol-nəqliyyat hadisələrinin baş verməsinə səbəb olan amillərdən biri də sürücünün sükan arxasında idarəetməni itirməsidir: "Təəssüflə qeyd edək ki, bəzi sürücülər avtomobildə hərəkətdə olan zaman əlini pəncərədən çölə çıxarırlar ki, bu da öz növbəsində idarəetməni çətinləşdirir və eyni zamanda qəza riskini artırır".

Mövcud qanunvericiliyin tələblərinə əsasən, sürücü hərəkət zamanı sükanı əlindən buraxmamalıdır, belə hal aşkarlandığı təqdirdə sürücü barəsində İnzibati Xətalar Məcəlləsinin 342.1.4-cü (hərəkət zamanı sükanı əldən buraxmağa görə) maddəsinə uyğun olaraq 40 manat məbləğində cərimə tətbiq ediləcək. Bu cərimə İnzibati Xətalar Məcəlləsində var. Amma adətən cərimə yazılmırdı. Lakin yenidən sürücülərə xəbərdarlıq edilib. Bu məsələnin aktuallaşmasına səbəb nədir?

### "ƏLİNİ ÇÖLƏ ÇIXARMAĞA GÖRƏ CƏRİMƏ TƏTBİQ OLUNMAYIB"

Bakı şəhər Dövlət Yol Polisi İdarəsindən də bildirildi ki, bəzi yol nəqliyyat hadisələrinin səbəbi sürücünün idarəetməni itirməsidir. Buna görə də avtomobil idarə edən zaman sükanı buraxmaq düzgün deyil. Məsələ ilə bağlı vətəndaşlara çağırış da edilib. O da qeyd edildi ki, əlini çölə çıxardaraq avtomobil idarə etməyə görə heç bir cərimə tətbiq olunmayıb. Amma sürücü hər iki əlini sükandan çəkərək maşını idarə edərsə, 40 manat məbləğində cərimə edilə bilər.

### "BİR ƏLLƏ MAŞIN SÜRÜLƏN ZAMAN QƏZALARIN SAYI ARTIR"



Aqil Rəhimov

Qəza əleyhinə kursların məşqçisi Aqil Rəhimov bildirdi ki, bu xəbərdarlıq ajiotaja səbəb olub, çünki sürücülər qərarı səhv anlayıb: "342-ci maddənin əli sükandan çəkməklə cərimə yazılması qaydası əvvəldən də var idi. Yəni yeni qərar deyil. Yəqin bundan sonra nəzarət daha da gücləndiriləcək. Yol polisi də açıqlama verib ki, əli sükandan çəkdikdə cərimə yazılacaq. Bir əllə maşın sürməyin təhlükəli olması ilə bağlı informasiya verib. Amma insanlar bunu yanlış anlayıb. Elə biliblər ki, qərar yenidir. Cərimə əli pəncərədən çıxarmağa görə yazılacaq. Əslində bununla bağlı cərimə mövcud deyil".

A.Rəhimovun sözlərinə görə, yol polisi xəbərdarlıq etməkdə haqlıdır. Həqiqətən də tək əllə maşın sürmək çox təhlükəlidir: "Çünki sürücünün qarşısına qəflətən maşın, yaxud piyada çıxdıqda iki əllə edə bildiyi manevr hərəkətini bir əli ilə heç vaxt edə bilməz. Bu zaman əksər hallarda qəzadan qaçmaq olmur. Tək əllə sükanı tutmaq idarəetməni çətinləşdirir. İnsan heç vaxt maşını iki əli ilə sürdüyü qədər ehtiyatlı və təhlükəsiz sürə bilməz. Bəzən elə olur ki, sürücü əlini pəncərədən çıxarır, qəza baş verir. Bu zaman şəxs əlini də itirə bilir. Bir əllə maşın sürülən zaman sözsüz ki, qəzaların da sayı daha çox olur".




**Foto:** Tapdıq Abdullayev - Global Photostock

## "BƏZİLƏRİ SÜKANI BURAXARAQ RƏQS EDİR, CANLI YAYIM AÇIR"

Müsahibimiz düşünür ki, maşını iki əllə idarə etmək qəzaların sayını azaldacaq: "Sərt tədbirlərin tətbiqinə ehtiyac var. Bəzi sürücülər sükanı buraxaraq mahnı oxuyur, rəqs edir, canlı yayım açır. Bu hallar çox böyük məsuliyyətsizlikdir. O səbəbdən bu kimi cərimələrin tətbiqi vacibdir".

### "QANUNDA BELƏ BİR MADDƏ YOXDUR"

Nəqliyyat sahəsi üzrə ekspert Adil Nəbiyev də qeyd etdi ki, hazırda cərimə yox, sadəcə xəbərdarlıq edilməsi mümkündür: "Mexaniki sürətlər qutulu maşın sürdükdə onsuz da hər iki əl daima sükanda olmur. Sol əllə sükan tutulur, digər əllə isə sürəti dəyişirik. Əlini şüşədən çölə çıxaranlar əsasən maşında kondisioner olmayan şəxslərdir. Yaxud siqaret çəkənlər belə edirlər. Kondisionerlə təchiz olunmuş avtomobillərdə belə hallara rast gəlinmir. 342-ci maddədə sükanı tam buraxmaqdan söhbət gedir. Pəncərədən əlini çıxarmaq üçün bir cərimə növü mövcud deyil. Əgər bununla bağlı cərimələr tətbiq ediləcəksə, qanunvericilikdə dəyişiklik edilməlidir. Əlimizi sükandan tamamilə buraxdıqda, avtomobili ətalətlə idarə etdikdə (ağırlıq qüvvəsinin təsiri altında və ya əvvəl yığdığı sürətin hesabına) 40 manat cərimə yazıla bilər".

### "ƏLLƏRİN HƏR İKİSİNİN SÜKANDA OLMASI ZƏRURİDİR"

A.Nəbiyevin fikrincə, qəza olarsa, təhlükəli hal yarana bilər: "Maşın aşar, əliniz qırıla bilər. Yaxud maşında hava yastığı açıldıqda əlimiz düzgün yerdə olmazsa, bu zaman sürətdən qolumuz və ya hər hansısa aksesuar gözümüzə dəyə bilər. Bu halda ağır fəsadlar baş verməsi mümkündür. Çünki hava yastığı sürətlə açılır. Bu məqamları nəzərə alaraq əllərin hər ikisinin sükanda olması zəruridir. Ümumiyyətlə, tək əllə sükanı tutmaq təhlükəlidir".

### "CƏRİMƏLƏRİN OLMASI NEQATİV HALLARIN SAYINI AZALDIR"

Ekspertin sözlərinə görə, təhlükəsizlik qaydalarında qeyd olunub ki, əlimiz sükanda saat əqrəbinin 3 və 9 vəziyyətində olmalıdır. Bu həm idarəetməni asanlaşdırır, həm də qəza şəraiti yarandıqda qarşısını almaq mümkün olur: "Cərimələrin olması az da olsa neqativ halların sayını azaldır. Sürücülərə məsləhətim odur ki, təhlükəsizlik qaydalarına riayət edərək avtomobili idarə etməyə çalışsınlar. Qayda-qanunla hərəkət etsinlər ki, qəzaların sayı az olsun".



Adil Nəbiyev

# HOTELLƏR "BOOKİNG"Ə QARŞI

Azərbaycanda digər onlayn portallarla müqayisədə "booking.com"un payı çoxdur və rezervasiyalar bu platforma üzərindən daha çox gəlir. Platformanın bazarda mövqeyi gücləndikcə komissiya faizini artırır, şərtləri diktə edir. Hotellərin narazılığı da bu diktədəndir.

TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az




Avropanın minlərlə hoteli ilə "booking.com" onlayn platforması arasında narazılıq pik həddə çatıb. Hotellər "Booking" şirkətinin siyasətinin azad rəqabət prinsiplərini pozduğunu iddia edirlər, platformaya qarşı məhkəməyə qədər gedib çıxan təzminat davası açıblar. Hotellər şirkətin "ən yaxşı qiymət" müddəasının qanunsuz olduğunu vurğulayır, 2004-2024-cü illərdə dəymiş zərərə görə təzminatın ödənilməsinin təmin olunmasını tələb edirlər.

Azərbaycandakı hotel və turizm şirkətlərinin də bu platforma ilə birbaşa işlədiyini nəzərə alsaq, onda yaranan problemin bizim turizm sektoru üçün də önəmli olduğu anlaşılar. Bəs bizim turizm sektorunda məsələyə münasibət necədir?

### CİDDİ VƏ GÜCLÜ MÖVQE

Azərbaycan Turizm və Menecment Universitetinin Mehmanxana və restoran biznesi kafedrasının müəllimi Ceyhun Aşurov "booking.com"un son dövrlərdə ciddi şəkildə bazar payına malik olduğunu bildirir: "Azərbaycanda da rezervasiyalar bu platforma üzərindən daha çox gəlir. Digər platformalar müqayisədə daha zəifdirlər. Platformanın bazarda mövqeyi gücləndikcə komissiya faizini artırır, şərtləri diktə edir. Hotellərin narazılığı da bu diktədəndir". C.Aşurov bildirir ki, platforma əslində "ən yaxşı qiymət" siyasəti tələbi ilə öz mövqelərini bazarda daha da möhkəmləndirib: "Çünki bu şirkətdə peşəkar idarəetmə sistemi var və məsələlərə operativ müdaxilə edirlər. "Booking.com" bir çox hotellərdə hətta öz saytlarından heç də yuxarı qiymətlər təqdim etmir, üstəlik öz sadiq müştərilərinə əlavə bonuslar verir". Turizmçi platformanın komissiya haqqının az olmadığı fikri ilə razıdır: "Şirkətin ortalama komissiyası 20 faiz təşkil edir. Bu da az rəqəm deyil. Məsələn, 100 manata satılan bir otağın 20 manatı birbaşa olaraq "booking.com"a ödənilmiş olur. Bu paya malik olan platforma o qədər güclüdür ki, hətta hotelləri özündən asılı vəziyyətə sala bilir. Daha yüksək reytinqli müştərilər "booking.com" vasitəsilə "Genius" proqramları ilə ciddi endirimlər, bəzən pulsuz bonuslar formasında xidmətlər alırlar. Bu da müştəri sədaqətini artırmış olur. Onlar da şirkət olaraq hotellərdən ən yaxşı qiymət vermələrini istəyirlər ki, satışları daha yaxşı olsun. Amma heç bir halda buna hotelləri məcbur etmirlər. Sadəcə, bazar tələbi ilə hotellər "booking"ə yaxşı komissiya və qiymət verməyi öz üzərlərinə götürürlər ki, satışları bu platformadan daha çox olsun". Ekspertin fikrincə, platforma hansısa qaydaları pozmur: "Əksinə, bazarda ciddi rəqabət yaradır, hotellərin üzərinə standartlar qoyur. Müştəriyə daha diqqətlə yanaşmasını tələb edir. Hesab etmirəm ki, Azərbaycandan olan hotellər bu məhkəməyə qoşulsun və "booking"ə qarşı belə addımlar atsınlar". Turizmçi hesab edir ki, bazarda bir şirkətin ciddi və güclü mövqeyə malik olması və digər şirkətlərin onun kölgəsində qalması nəticə olaraq, rəqabət mühitini müəyyən qədər poza bilər: "Yaxşı olardı ki, digər şirkətlər də bazarda fəaliyyət göstərsin. Çünki bazarın bütünlüklə "booking.com" platformasından ciddi şəkildə asılı olması hotellər üçün müəyyən risk daşımış ola bilər".

## Rəsmi nümayəndəliyi yoxdur

Turizmçi Əfsun Əhmədovun sözlərinə görə, ölkəmizdə "booking.com"la bağlı vəziyyət elə də ürəkaçan deyil: "Platforma Azərbaycanda vergi ödəmir və rəsmi nümayəndəliyi yoxdur. Əfsuslar olsun ki, bu tələblərlə bağlı aidiyyəti qurumlar tərəfindən hələlik heç bir ciddi addım atılmayıb. Bu, həm dövlətə, həm də sahibkarlara mənfi təsir edir. Hotellər öz saytında və ya yerli platformada endirim edə bilmir. Çünki "booking.com" müqavilə şərtlərinə əsasən eyni və ya daha yüksək qiymət tətbiq edilməsini tələb edir".




Foto: Ramil Yunus/Global Photostock

### HOTELLƏR BİR ARAYA GƏLSƏ

"Azərbaycanda da bir çox hotel və qonaq evi "booking.com"a qoşulub, çünki xarici turistlərin böyük hissəsi məhz bu platforma vasitəsilə bron edir", - deyə turizmçi Aytac Nəzirli bildirir: "Komissiya faizləri bizdə də eynidir - təxminən 15-25%. Lakin bizdə Avropadakı kimi güclü və birgə çıxış edən hotel birlikləri olmadığı üçün kollektiv müqavimət azdır. Kiçik hotellər bəzən komissiyadan qaçmaq üçün birbaşa bron – "WhatsApp", telefon və ya öz saytlarından endirimli təklif edirlər. Amma "booking" bunu aşkar etsə, onların profilini məhdudlaşdıra bilər. Turizm şirkətləri adətən "booking.com"dan birbaşa istifadə etmirlər. Onlar hotellərlə B2B müqavilə bağlayır, topdan qiymətlər alır və öz paketlərini formalaşdırırlar. Bu, onlara həm komissiya yükündən xilas olmağa, həm də daha çevik qiymət siyasəti aparmağa imkan verir". A.Nəzərlinin fikrincə, Azərbaycanda hotellərin bir araya gəlib güclü bir Hotel Assosiasiyası yaratmasına ehtiyac var: "Belə olduqda, "booking" və digər platformalarla daha ədalətli şərtlərlə danışıqlar aparmaq mümkün olar. İkincisi, hotellər öz rəsmi saytlarını, SEO və sosial media kanallarını gücləndirərək birbaşa satış payını artırmalıdır. Avropadakı məhkəmə proseslərinin nəticəsi də bizə təsir göstərə bilər. Əgər "vahid qiymət siyasəti" Avropada qadağan olunsa, "booking" bu şərti Azərbaycandan da götürməyə məcbur qala bilər".

KREDİT KARTLARI İLƏ BAĞLI SON QƏRAR BANKLAR VƏ VƏTƏNDAŞLARA NECƏ TƏSİR EDƏCƏK?

# GƏLİRİN BEŞ MİSLİ QƏDƏR KREDİT LİMİTİ

Kredit kartları ilə bağlı tətbiq ediləcək məhdudiyyətlər riskləri azaltmağa hesablanıb. Ekspertlər bu qərarın çoxdan atılmalı olduğu qənaətindədirlər. Çünki insanlar gəlirlərinin üzərində borclanırlar.



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

Əhalinin kredit kartı ilə borclanması məhdudlaşdırılıb. Dəyişikliklərə əsasən, borcalanın kredit kartı onun xalis vergidən sonrakı gəlirinin maksimum beş misli qədər olacaq. Sözügedən limit borcalanın digər kredit təşkilatlarına qarşı öhdəliklərini də nəzərə almaqla hesablanır. Bəs bu qərar vətəndaşlara, banklara necə təsir edəcək?

### "BORCLANMANIN ARTMASI İNFLYASİYANI QİDALANDIRA BİLƏR"

Maliyyə məsələləri üzrə konsultant, Bakı Mühəndislik Universitetinin Maliyyə və mühasibat kafedrasının baş müəllimi Elmin Nemətlinin sözlərinə görə, istehlak kreditləri istər bank aktivlərinin, istərsə də bankların kredit portfelinin mühüm hissəsini təşkil edir: "30 iyun 2025-ci il tarixinə istehlak kreditlərinin (ipoteka kreditləri istisna olmaqla) ümumi həcmi 8 milyard 898 milyon təşkil edib ki, bu da icmal bank aktivlərinin 15.7 faizi deməkdir. Müvafiq göstəricilər 2024-cü il 30 iyun tarixinə 7 milyard 634 milyon manat və 15.2 faiz təşkil edib. İstehlak kreditlərinin həcmi təkcə son altı ayda 453.30 milyon manat artıb. Bu göstərici son bir ildə 1 milyard 264 milyon, son beş ildə isə 4 milyard 958 milyon manat təşkil edib. Azərbaycanda hazırda 2 118 498 ədəd kredit kartı mövcuddur. Beş il əvvəl bu rəqəm 1 203 158 ədəd idi. Hər yeni kredit kartı vətəndaşa verilən yeni kredit limiti deməkdir".

Maliyyə konsultantı bildirdi ki, istehlak kreditlərinin həcminin qeyri-adekvat böyüməsi əhalinin qeyri-sağlam maliyyə yükünü artırır. Bu, eyni zamanda bankların kapital mövqeyinin zəifləməsinə də gətirib çıxara bilər: "Banklar ayda bir dəfədən az olmayaraq aktivlərini təsnifləşdirməli və mümkün zərərlərin ödənilməsi üçün xüsusi ehtiyatlar ayırmalıdırlar. Bu baxımdan, vaxtı keçmiş kreditlər artdıqca banklar da əlavə ehtiyat ayırmağa məcbur olur. Bu isə bankların mənfəətinə və kapital mövqeyinə mənfi təsir göstərir. İstehlak yönümlü borclanmanın artması inflyasiyanı qidalandıra bilər".



Elmin Nemətli

### "QEYRİ-İŞLƏK İSTEHLAK KREDİTLƏRİ SÜRƏTLƏ ARTIR"

E.Nemətlinin fikrincə, Mərkəzi Bankın yeni qaydaları hər bir bankın özünə aid müvafiq kapital göstəricisinə uyğun istehlak krediti xətləri açmasına gətirib çıxaracaq. Daha yüksək kapital göstəricisinə malik olan bank daha böyük həcmdə kredit xətti açmaq imkanında olacaq.

Ekspert bildirdi ki, məhdudiyyətlərin olmaması bankların yüksək gəlir əldə etmək məqsədilə vətəndaşa ödəmə qabiliyyətindən daha yüksək məbləğdə kredit (o cümlədən kredit limiti) verməsinə imkan yaradırdı: "Qeyri-işlək kreditlərin (90 gündən artıq gecikmə) istehlak kreditlərinin nisbətinə diqqət yetirsək, son bir ildə bu göstəricinin 3 faizdən 3.6 faizə yüksəldiyini görə bilərik. Qeyri-işlək istehlak kreditləri 30 iyun 2024-cü il tarixinə 226.3 milyon, 1 il sonra isə 321 milyon təşkil edib".




## "BÜDCƏ PLANLAŞDIRMASI BARƏDƏ SAVADLILIQ ARTIRILMALIDIR"

E.Nemətli deyir ki, problemli kreditlərin azalması fonunda bankların gözlənilən mümkün zərərlər üçün xüsusi ehtiyat ayırmaları azalacaq. Sözügedən aktivlərin azalması bankların həmin kreditlərin bərpası üçün sərf etdiyi resurslara qənaət etməsinə gətirib çıxaracaq: "Bu, mənfəətliyə müsbət təsir edəcək. Problemli kreditlərin azalması bankların kapital mövqeyində bu və ya digər dərəcədə güclənməyə gətirib çıxaracaq".

### "EFFEKTİVLİK ÜÇÜN MAARİFLƏNDİRMƏ DƏ LAZIMDIR"

Maliyyəçinin fikrincə, qərarın effektiv olması üçün maarifləndirmə də lazımdır: "Dəyişiklik xüsusilə də yüksək məbləğdə istehlak krediti xətti əldə etmək istəyən müştərilərin sayını məhdudlaşdıracaq. Yüksək limitli kredit kartları vasitəsilə gərəksiz xərclərin nisbətən azalacağını da ehtimal edə bilərik. Digər maarifləndirici üsullar vasitəsilə də vətəndaşların borc yükü və şəxsi büdcə planlaşdırması barədə savadlılığının artırılması yönündə davamlı çalışmalar həyata keçirilməlidir. Çünki potensial borcalan xalis gəlirinin beş mislinə qədər olan borclanma perspektivini də düşünməli və məsuliyyətini dərk etməlidir. Gəlirə uyğun xərcləmə prinsipi və qənaət vərdişləri vətəndaşın özündə formalaşmadığı müddətcə digər məhdudlaşdırıcı alətlər yüz faizli nəticə göstərməyəcək".

### "İNSANLAR MALİYYƏ GÜCLƏRİNİ DOĞRU QİYMƏTLƏNDİRƏ BİLMİRLƏR"

İqtisadçı Eldəniz Əmirov da düşünür ki, istehlak kreditlərinin verilmə şərtlərinin sərtləşdirilməsinə ehtiyac var idi: "Çünki 2021-2025-ci illər ərzində istehlak kreditləri 90,5 faiz artaraq 8,6 milyard manata çatıb. Problemli kreditlərin də əsas hissəsi məhz istehlak kreditləridir. İstehlak kreditlərinin son illərdə sürətlə artması və onların problemli kreditlərin içərisində yüksək paya sahib olması maliyyə dayanıqlığı üçün risk yaradır. Mərkəzi bank həm bankların dayanıqlılığını qorumaq, həm də əhalinin borc yükünü optimallaşdırmaq məqsədilə belə bir addım atıb. İnsanlar öz maliyyə güclərini doğru qiymətləndirə bilmirlər. Beləliklə, qarşılaya bilməyəcəkləri maliyyə yükü altına girirlər".

E.Əmirovun sözlərinə görə, istehlak kreditlərinin böyük hissəsi kredit kartları üzərindən baş verir. Dəyişiklik vətəndaşları düşünülmüş maliyyə qərarları verməyə sövq edəcək: "Bu qərar bankların mənfəətini azalda bilər. Çünki banklar kredit verərək mənfəət əldə edirlər. Amma müsbət tərəfi odur ki, birbaşa daha şəffaf və riski aşağı maliyyə mexanizmləri yaranacaq. Eyni zamanda, problemli kreditlərin həcmini azaldacaq. Əgər banklara minlərlə insanın borcu varsa, bu, onlar üçün problem deməkdir. Belə bankların sayının çox olması ölkə iqtisadiyyatı üçün də problemlər yaradır. Ona görə də bu, yerində atılmış addımdır".



Eldəniz Əmirov



# AVROPANIN QOLF CƏNNƏTİ

TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

**Lüks həyat tərzi və qlamurluğu ilə seçilən Marbella İspaniyanın Aralıq dənizi kurortları arasında ən yaxşılarındandır. Burada çimərlik mövsümü may ayında başlayır və oktyabra qədər davam edir. Qışda şəhər "Sierra Blanca" dağ silsiləsi tərəfindən kəskin və sərin küləklərdən etibarlı şəkildə qorunur.**

Marbella İspaniyanın ən arzuolunan turizm məkanlarından biridir. Lüks həyat tərzi və qlamurluğu ilə seçilən şəhər bu gün İspaniyanın Aralıq dənizi kurortları arasında əsas "ulduz" sayılır. Əndəlusün rəngini qoruyub saxlayan şəhərdə tarixin Roma və ərəb dövrləri bir-biri ilə sıx bağlıdır. Marbella şəhəri və onun möhtəşəm limanı "Puerto Banus" hələ ötən əsrdə Avropanın yüksək cəmiyyəti üçün sığınacağa çevrilib.

2022-ci ildə Marbella Avropanın ən yaxşı səyahət istiqamətləri arasında reytinqdə 2-ci yeri tutub.

### "ULDUZ"LARIN SEÇDİYİ MƏKAN

Marbella ildə təxminən 300 gün günəşin parladığı kurortdur. Yağışlı hava bu şəhər üçün nadirdir. Burada çimərlik mövsümü may ayında başlayır və oktyabra qədər davam edir. Qışda şəhər "Sierra Blanca" dağ silsiləsi tərəfindən kəskin və sərin küləklərdən etibarlı şəkildə qorunur. Buna görə də isti və günəşli hava demək olar ki, bütün il boyu turistləri cəlb edir.

Marbellada dəbdəbəli istirahət üçün hər şey var: qar kimi ağ villalar və lüks hotellər, eksklüziv gəmiləri olan estakada, panoramik mənzərəli dəbli butiklər və restoranlar və möhtəşəm gəzinti yerləri. Marbella tarixi və müasir memarlıq binaları, muzeylər, parklar, əyləncə mərkəzləri və gecə klubları ilə zəngindir. Kurort şəhərin zənginlər üçün sevimli istirahət məkanı olması da bu səbəbdəndir. Dünyanın idman, kino və musiqi ulduzları, varlı ərəb şeyxləri və kral ailələri bu şəhəri çox sevirlər. Marbellada sadə insanlar arasında sakitcə gəzən "ulduz"lara rast gəlmək o qədər də nadir hadisə deyil. Yay tətillərində, məxməri payızda, Milad və Pasxa bayramlarında Marbellanın məşhur qonaqları sadə turistlərə qarışır.

### ƏSRLƏRİN DƏRİNLİKLƏRİNƏ SƏYAHƏT

Marbellanın ən çox ziyarət edilən turistik yeri Köhnə şəhərdir (Old Town). Köhnə şəhərə səyahət - kiçik bir balıqçı kəndi ilə tanışlıqdır. Deyəsən, keçmişdən bu küçələrdə çox az şey dəyişib: dar dolama dalanlar, rəngarəng çiçək qabları ilə bəzədilmiş eyvanlar... Bu labirint küçələrdə yerli sənətkarlıq dükanları beynəlxalq brend butikləri ilə yanaşı dayanır. Köhnə şəhərin mərkəzində, 16-cı əsrə aid malikanədə şəhərin ən çox ziyarət edilən muzeylərindən biri olan Oyma Muzeyi (Museo del Grabado) yerləşir. Sənətsevərlər üçün əsl xəzinə olan muzeydə Pikassonun, Joan Mironun, Antoni Tapiesin və Antonio Sauranın əsərləri nümayiş etdirilir.

Tarixi mərkəzdə 11-12-ci əsrə aid Qala divarları (Murallas del Castillo) şəhərdəki müsəlman sivilizasiyasının ən əhəmiyyətli qalıqlarıdır. Bu memarlıq ansamblı heyranedicidir və turistləri əsrlərin dərinliklərinə səyahətə aparır.

### QOLFLA CİDDİ MARAQLANANLAR ÜÇÜN MƏŞHUR YER

Marbella həm İspaniyada istirahət etmək istəyən xarici turistlər, həm də qolfla ciddi maraqlananlar üçün məşhur yerdir. Bu əzəmətli sahil şəhəri təcrübəli peşəkarlardan tutmuş həvəskar qolfçulara qədər bütün profillərdən olan idmançıları cəlb edir. "İdman həvəskarları Marbellaya xüsusi önəm verirlər. Bu şəhərin dəniz kənarları il boyu qaçışçılar, velosipedçilər, piyadalar və konki sürənlər tərəfindən zəbt olunur", - deyə tur bələdçisi məlumat verir: "Marbella dünyanın ən yüksək səviyyəli qolf meydançalarına malikdir. Aralıq dənizinin buradakı sahillərini təsadüfən "Kosta del Qolf" adlandırmırlar. Əla xidmət, infrastruktur və bütün il boyu əlverişli hava Marbellanı bu elit idman növü ilə məşğul olmaq üçün ideal yerə çevirir".

Marbella European Best Destinations (EBD) tərəfindən 2024-cü il üçün Avropanın qolf üzrə ən yaxşı istiqaməti seçilib. Sorğuda ən çox amerikalı və britaniyalı turistlər iştirak edib.

Marbellada onlarla mükafat qazanan qolf klubları var. Bu klubların hər biri özünəməxsus şəkildə unikaldır və əksəriyyəti dünya standartlarını aşan ən müasir infrastruktura malikdir. Xüsusi qolf həvəskarları İspaniyada qolf klublarının yaxınlığında daşınmaz əmlak alırlar.

### EVLƏRİN QİYMƏTİ 200-250.000 AVRODAN BAŞLAYIR

Şəhərin küçələrini gəzdikcə daşınmaz əmlak elanları təqdim edən ofislərlə rastlaşmaq olur. Marbelladakı ən ucuz mənzilin (32 m²) qiyməti 200-250.000 avrodur ki, bu mülkə bir yataq otağı, qonaq otağı, təchiz olunmuş mətbəx və bir vanna otağı daxildir. Burada ikiotaqlı mənzillərin qiyməti 300.000 avrodan, üçotaqlı mənzillərin qiyməti isə 450-500.000 avrodan başlayır.

Ən bahalı daşınmaz əmlaklar Marbellanın dəbdəbəli çimərliklərində yerləşir. SSRİ Xalq artisti İosif Kobzon da ölümündən qabaq bu sahillərdəki evində yaşayırmış.

"Marbellada əmlaka tələbat heç vaxt son illərdəki qədər yüksək olmayıb. İstər dəniz kənarında lüks villa, istərsə də şəhərin mərkəzində müasir penthaus - yuxarı dairə olsun, Marbella əmlak sektoru hər zövqə uyğun müxtəlif seçimlər təklif edir. İspaniyadakı əmlak alıcıları büdcəli mənzillərdən tutmuş zəngin villalara qədər öz büdcələrinə uyğun olaraq seçim edə bilərlər", - deyə əmlak satıcısı bildirdi.

### HƏR YAŞA, HƏR ZÖVQƏ VƏ HƏR BÜDCƏYƏ UYĞUN

Marbella çimərlik tətili üçün ən yaxşı yerlərdəndir. Kurort şəhərin qumlu sahil xətti təxminən 27 kilometr uzanır və cəlbedici çimərliklərə malikdir. Marbella təbiət həvəskarlarına müxtəlif ekoturizm variantları təklif edir. Onlar ətraf ərazinin ən unikal təbiət qoruqlarında macəra axtarışına çıxırlar. "Burada hər kəs öz zövqünə uyğun bir şey tapacaq", - deyə bələdçi qeyd edir: "Marbellanı cəlbedici edən də budur: hər yaşa, hər zövqə və hər büdcəyə uyğun variantlar təklif etməsi..."



Kaspi
ÜÇ ƏSRİN QƏZETİ
İDMAN
23 AVQUST ŞƏNBƏ 2025

# AVROPADA FUTBOL MÖVSÜMÜ BAŞLAYIR

Yayda baş verən transferlər, komandalardakı heyət və məşqçi dəyişiklikləri Avropada futbol mövsümünün olduqca maraqlı keçəcəyini deməyə əsas verir.



Avropanın yaşıl meydanlarında yeni futbol mövsümü start xəttindədir. Artıq İngiltərə Premyer Liqası, İspaniya La Liqası və Fransa Liqa 1-də çempionat başlayıb. Bu həftə onlara İtaliya A Seriyası və Almaniya Bundesliqası qoşulur. Beləliklə, komandalar gələn ilin mayına qədər uzanan marafona start verirlər.

## İNGİLİSLƏRDƏN AMANSIZ RƏQABƏT SİQNALLARI

Bu mövsüm də azarkeşlərin diqqəti daha çox "Dumanlı Albion"a yönələcək. Ən populyar çempionat olan İngiltərə Premyer Liqasında bir neçə komanda kuboka iddialıdır. Son qalib "Liverpul" yayda etdiyi ciddi transferlərlə titulunu qorumaq niyyətindədir. Komanda mövsümə dörd qollu qələbə ilə başlayıb. Mersisayd klubu bununla yenidən iddiasını ortaya qoymağı bacarıb.

4:0 hesablı darmadağınla başlayan "Mançester Siti", ilk görüşdə "Mançester Yunayted"dən minimal fərqlə güclü olmağı bacaran "Arsenal" da əsas favoritlərdəndir. Elə "qırmızı şeytanlar"dan da gözləntilər böyükdür. Ruben Amorimin rəhbərlik etdiyi kollektiv yayda transferlərə 230 milyon avro xərcləyib. Mütəxəssislər "mankunyanlar"ın bu mövsüm rəqabətədavamlı olacağını proqnozlaşdırırlar. "Çelsi" isə 280 milyon avroya heyətini daha da gücləndirməyə çalışıb. London təmsilçisi müxtəlif mövqelərə transferlər edib. Ümumilikdə, İngiltərədə mövsümün olduqca maraqlı və gərgin keçəcəyi gözlənilir.

## DƏYİŞƏN "REAL MADRİD"

İspaniya çempionatında favoritlər dəyişməzdir. Yenə "Real Madrid" və "Barselona"nın çempionluq uğrunda mübarizə aparacağı şübhə doğurmur. Hər iki kollektiv mövsümə qələbə ilə başlayıb. "Real Madrid" evdə "Osasuna"nı minimal hesabla yenibsə, son çempion "Barselona" "Malyorka"ya rəqib meydanında üç cavabsız qol vurub. Kataloniya klubu heyətini demək olar ki, dəyişməyib. Komanda çox az transferlərlə kifayətlənib. "Barsa"nın əzəli rəqibi "Real Madrid"də ciddi islahatlar gedib. İlk növbədə baş məşqçi postunda Karlo Ançelottini "Bayer"də xarüqələr yaradan Xabi Alonso əvəzləyib. La Liqada Madridin digər təmsilçisi "Atletiko" və Bilbao "Atletik"inin çıxışı da maraqla gözlənilir.

## DƏYİŞMƏZ ƏBƏDİ FAVORİTLƏR

Bundesliqa və Liqa 1-də bu dəfə də əsas iddialılardan bəhs ediləndə ilk olaraq "Bavariya" və PSJ-nin adı çəkilir. Hər iki komandanın xüsusi təqdimata ehtiyacı yoxdur. Onlar həm heyətlərinə, həm son illərdəki çıxışlarına görə bu il də əsas favorit sayılırlar. Çempionlar Liqasının son qalibi PSJ-yə müqavimət göstərə bilən klub, ümumiyyətlə, Liqa 1-də yoxdur. "Marsel", "Monako" kimi komandaların iddiası 2-ciliyədir. "Bavariya"da vəziyyət bir qədər fərqlidir. Münhen təmsilçisi iki il əvvəl çempionluğu "Bayer"ə uduzsa da, keçən mövsüm titulu geri qaytardı. Leverkuzen klubunda Xabi Alonsonun gedişindən sonra komandanın hansı səviyyədə olacağı əsas sual yaradan məqamlardandır. "Bavariya" üçün digər manevə yarada biləcək komanda isə əbədi və əzəli rəqib Dortmund "Borussiya"sıdır. Klub adəti üzrə bu yay bir neçə əsas futbolçusunu satsa da, yeni oyunçular cəlb edilib. Xüsusilə, "Real Madrid"in ulduzu Cud Bellinqemin qardaşı, 19 yaşlı Cob Bellinqemin necə çıxış edəcəyi maraq doğurur.



## SAKİT İTALYANLAR

İtalyanlar millət olaraq hər nə qədər emosional hesab olunsalar da, "Buzovlar ölkəsi"nin futbol klubları yay transfer mövsümünü o qədər də səs-küylü keçirmədilər. Hətta prosesi "sakit" deyə ifadə etsək, yanılmarıq. Əksinə, Matteo Reteqi, Ticani Reynders, Teo Hernandez kimi ulduzlar A Seriyasını tərk etdilər. Bu yay İtaliyaya köçənlərə gəldikdə isə burada Kevin de Bruyne və Conatan Devidin adını qeyd etmək olar. De Bruyne "Mançester Siti"ni "Napoli"yə, Devid isə "Lill"i "Yuventus"a dəyişib. Onlar üçün də İtaliya klubları heç bir ödəniş etməyiblər. Bununla belə, Appenin yarımadasında bu il də gərgin rəqabət gözlənilir. "İnter" "Napoli"yə uduzduğu çempionluğu geri qaytarmaq istəyirsə, neapollular titulu qorumaq əzmindədir. "Yuventus", "Milan", "Roma" kimi klublar onlarla rəqabət aparmağa çalışacaqlar.

Ümumilikdə, yayda baş verən transferlər, komandalardakı heyət və məşqçi dəyişiklikləri Avropada futbol mövsümünün olduqca maraqlı keçəcəyini deməyə əsas verir. Artıq bir neçə tur sonra mövsümün qalanı ilə bağlı ilkin təxminləri daha dəqiq irəli sürmək mümkün olacaq.